Xalqın qəzeti!

# Xalq qəzeti

№ 200 (30316) 16 sentyabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün xəbəri**

**Heydər Əliyev Fondu builki Bilik Günündə 500-cü məktəbi də istifadəyə verdi. Bunun son 19-u müəllim və şagirdlərə yeni tədris ilinin hədiyyəsi oldu.**

## Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı yeni mərhələdə



**Bu yaxınlarda Qazaxıstanda olarkən Skandinaviyada yaşayan Əhməd Rzapur adlı bir soydaşımızla görüşmək imkanım olmuşdu. Həm təxminən yaşıd olduğumuza, həm də onun Türkiyə, İran, Mərkəzi Asiya ölkələri haqqında ətraflı biliyə malik olduğuna görə söhbətimiz tutdu və adı çəkilən bu məkanın inkişafında Azərbaycanın oynadığı rol barədə xeyli söhbət etdik.**

*(ardı 4-cü səhifədə)*

## Prezidentin Tacikistan səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına səfəri sentyabrın 15-də başa çatıb.**

Düşənbə Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Tacikistanın Baş naziri Koxir Rasulzada və digər rəsmi şəxslər yola saldılar.

## ABŞ Senatında ermənipərəstlik şousu

**“Dağlıq Qarabağda böhranın qiymətləndirilməsi” – ABŞ Senatının Beynəlxalq əlaqələr komissiyasında bu mövzuda dinləmələr keçirilib. Müzakirə başlayar-başlamaz komissiyanın sədri Robert Menendez deyib ki, Azərbaycan artıq bir neçə aydır Laçın dəhlizinə girişi bağlayıb, acından ölən Qarabağ ermənilərinə, hətta humanitar yardımın çatdırılmasına da imkan vermir. Qatı ermənipərəst, anti-türk, anti-Azərbaycan mövqeyi ilə seçilən R.Menendez tərəfindən belə fikirlərin söylənilməsi heç də təəccüblü sayılmamalıdır.**



Bəli, R.Menendez susmaq bilmir. Ermənistanın Qarabağ müstəvisində qaldırdığı avantürizm oyununa xüsusi “çalarlar” gətirməkdə davam edir. Hər halda, bunu bacardığını deyə bilərik. Müzakirə təşkil edib. Elə bir müzakirə ki, ora ABŞ Dövlət Departamentindən də təmsilçi qatılıb. Söhbət Birləşmiş Ştatların Dövlət katibinin Avropa və Asiya məsələləri üzrə müavini vəzifəsini icra edən Yuri Kimdən gedir. Xanım Kimin, eləcə də R.Menendezin sözügedən müzakirə gedişində nələri danışmaları haqqında söz açmazdan əvvəl, diqqəti dinləmənin qarşısına qoyduğu başlıca hədəfə yönəldək.

*(ardı 3-cü səhifədə)*

## Heydər Əliyev Fondu 500-cü məktəbi də istifadəyə verdi

Səhifə ➩ 8



## Ermənistan dövlətçiliyini itirmək təhlükəsi qarşısında

### *Xaçikyan həyəcan təbili çalır*

**Ermənistan dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzədir. Bu, indiki hakimiyyətin beşillik “fəaliyyətinin” nəticəsidir. Belə bir fikri ABŞ-ın Stenford Universitetinin erməni əsilli siyasi elmlər doktoru Artur Xaçikyan dilə gətirib.**



Əslində, Ermənistan dövlətçiliyinin itirilməsi proqnozu üzərində qurulmuş fikirlər yalnız A.Xaçikyanın düşüncəsinin məhsulu sayılmamalıdır. Sosial şəbəkələrin erməni seqmentində də mövcud istiqamətdə çoxsaylı tutarlı əsaslandırmalara rast gəlirik. Əlbəttə, həmin əsaslandırma müəlliflərinin yalnız az qismində vəziyyətə rasional baxış ifadə olunmaqdadır. Əksəriyyət, gücü baş nazir Nikol Paşinyanın və onun komandasının səriştəsizliyi motivlərinə yönəldir. Belələri hazırkı iqtidarın devrilməli, yerinə milli qüvvələrin gəlməli olduğunu vurğulayırlar. Milli qüvvələr kimlərdir – Koçaryan-Sarkisyan xuntası və ona yaxın şəxslər. Yəni, hər bir halda iflas qaçılmazdır. Çünki bu qüvvələrin hakimiyyətdə olması da ənənəvi erməni xəstəliyini sağaltmayacaq. Əksinə, Qarabağ avantürası daha da güclənəcək ki, bu da yekun nəticədə məhv olmaq deməkdir...

*(ardı 3-cü səhifədə)*

## Koksun köksü erməni sevgisinə darısqallıq edir




**Erməni lobbisinin pulla ələ aldığı şəxslərdən biri olan “Beynəlxalq Xristian Həmrəyliyi” xristian hüquq-müdafiə təşkilatının rəhbəri, Humanitar Yardım Fondunun (HART) təsisçisi və prezidenti, baronessa Kerolayn Koks Ermənistana səfər edib. Oradan dərhal Azərbaycanla şərti sərhədə gəlib. Dığ kəndində yerli icmanın rəhbəri və üzvləri ilə görüşüb. Daha sonra “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsinin qarşı tərəfində düzülmüş yük maşınlarının yanında videoçəkiliş edib. Çəkiliş zamanı ölkəmizin ünvanına böhtan atıb, baş verənləri “dövrümüzün faciəsi” adlandırıb. O, İrəvanda qondarma separatçı rejimin “xarici işlər naziri” Sergey Qazaryanla da görüşüb.**

Qeyd edək ki, Böyük Britaniya Lordlar Palatasının üzvü və keçmiş sədr müavini, ixtisasca sosioloq olan baronessa Koksun ermənipərəstliyinin keçən il 30 illiyi “təntənəli şəkildə” qeyd edilib. O, 1992-ci ildən Ermənistan–Britaniya parlament dostluq qrupunun sədri olub. Sosialist və xristian baxışlarına malikdir.

Baronessa Qarabağın erməni işğalı altında olduğu illər ərzində ora 60 dəfədən çox səfər edib. Guya, bu səfərlər “humanitar xarakter” daşıyıb və sakinlərə lazımi dərmanlar çatdırıb. 2006-cı ildə “görkəmli dövlətçilik və ictimai-siyasi fəaliyyətinə, habelə diplomatiya, hüquq və siyasət sahələrində mühüm nailiyyətlərə görə” Ermənistanın “Mxitar Qoş” medalı ilə təltif edilib.

ABŞ-dakı qatı ermənipərəst konqresmen Frenk Pallone onu “əsl erməni millətçisi” adlandırıb. Deyib ki, K.Koks Ermənistan və Qarabağ uğrunda canını verməyə hazırdır.

Ermənistanla Azərbaycan arasındakı münaqişədən bəhs edən “Qara Bağ” kitabının müəllifi Tomas de Vaal K.Koksun münaqişədə iştirakını təsvir edərək, onu “Qarabağ ermənilərinin çılğın tərəfdarı” adlandırıb.

Onu da qeyd edək ki, Azərbaycanın razılığı olmadan Qarabağa səfərlər etdiyinə görə Koks Xarici İşlər Nazirliyi tərəfindən ölkəmizdə arzuolunmaz şəxs elan edilib, onun ərazimizə daxil olması qadağan olunub. İndi belə bir şəxs əlinə düşən fürsətdən istifadə edərək öz aləmində ölkəmizdən “qisas almağa” çalışır. “Qisas”ı isə böhtan atmaqda görür. Ancaq Koks və onun kimilər belə haray-həşir salmaqla, çətin ki, nəyəsə nail olsunlar.

*XQ*

## “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq”



Səhifə ➩ 5

## Rusiya–Ukrayna müharibəsi: PUA-lar səmada “at oynadır”



Səhifə ➩ 11

## Üzeyir Musiqi Günü bu il daha təntənəli keçəcək

**Prezident Heydər Əliyevin 18 sentyabr 1995-ci il tarixli fərmanı ilə Azərbaycan professional musiqi sənətinin banisi Üzeyir Hacıbəylinin dünyaya gəldiyi 18 sentyabr ölkəmizdə Üzeyir Musiqi Günü kimi qeyd olunur.**

Ötən illərdə həmin gün ərəfəsində ənənəvi beynəlxalq musiqi festivalı, klassik musiqi konsertləri, müxtəlif tədbirlər keçirilib. Bu il də Üzeyir Musiqi Gününün repertuarı zəngindir.

*(ardı 10-cu səhifədə)*



# “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktiki konfrans münasibətilə səmimi-qəlbdən salamlayıram.

Məhz Heydər Əliyevin demokratik, hüquqi dövlət quruculuğu yolunda yorulmaz səyləri, polad iradəsi sayəsində Azərbaycanda şəffaf maliyyə və audit sistemi qurulmuşdur. Anadan olmasının 100 illiyini qeyd etdiyimiz bu ildə biz Ulu Öndər tərəfindən təməli qoyulmuş, dinamik inkişaf edən güclü iqtisadiyyat görürük.

Müstəqilliyimizin ilk illərində iflasa uğramış ölkə iqtisadiyyatını dirçəltməyin yeganə yolunu bazar iqtisadiyyatına keçiddə, dünya iqtisadiyyatına inteqrasiyada görən Ümummilli Lider irimiqyaslı islahatlara start vermişdir. Onun rəhbərliyi ilə korporativ idarəetmənin təkmilləşdirilməsi, azad rəqabət mühitinin dəstəklənməsi sahəsində görülən fundamental tədbirlər azad sahibkarlığın inkişafını ön plana çəkmişdir. Eyni zamanda Heydər Əliyevin uzaqgörən siyasəti, böyük dövlətçilik təcrübəsi və strateji baxışı ölkənin iqtisadi inkişafını təmin etməklə yanaşı, çoxvektorlu iqtisadi siyasətimizin əsasını qoymuş, Azərbaycana dünyada etibarlı tərəfdaş statusu qazandırmışdır.

Azərbaycanda şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində beynəlxalq audit və beynəlxalq mühasibat uçotu standartlarına keçidin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Həyata keçirilmiş kompleks tədbirlər yeni dövrün iqtisadi çağırışlarını nəzərə almaqla, ölkədə maliyyə-uçot sisteminin beynəlxalq tələblər əsasında təkmilləşdirilməsinə, iqtisadiyyatımızın dünya təsərrüfat sisteminə inteqrasiya imkanlarının gücləndirilməsinə şərait yaratmışdır.

Hesabatlılığın və obyektiv keyfiyyətli informasiya təminatının başlıca amili qismində şəffaflıq həm də resurslardan səmərəli və məqsədyönlü istifadənin əsası kimi dəyərləndirilməlidir. Müasir dövrümüzün qlobal çağırışlarına effektiv və çevik reaksiya verilməsi, eləcə də hazırkı dönəmdə Azərbaycan üçün ən önəmli məsələlərdən olan işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa işləri ölkəmizdə maliyyə sektorunda aparılan islahatların daha da gücləndirilməsini, maliyyə imkanlarının səfərbər olunmasını labüd edir. Dövlətin maliyyə resurslarının qorunub saxlanılması, onlardan məqsədyönlü, qənaətli və səmərəli istifadə üçün bu sahədə nizam-intizamın möhkəmləndirilməsi, şəffaflığın artırılması və dövlət nəzarəti mexanizminin təkmilləşdirilməsi vacibdir. Həmçinin milli iqtisadiyyatımızın dayanıqlı inkişafını şərtləndirən amillər qismində yeni dövrün tələblərinə uyğunlaşdırılmış dövlət nəzarəti və müstəqil audit sisteminin, habelə qeyri-dövlət nəzarətinin önəmli bir forması kimi ictimai nəzarətin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

**Hörmətli konfrans iştirakçıları!**

Bugünkü konfrans dayanıqlı inkişaf, hesabatlılıq, şəffaflıq məsələləri ilə bağlı qlobal gündəlikdə dayanan çağırışların və imkanların müzakirəsi, bu sahədə qabaqcıl təcrübə mübadiləsi üçün əlverişli fürsətdir. İnanıram ki, tədbir hesabatlılıq və şəffaflıq mühitinin daha da yaxşılaşdırılması imkanlarının müəyyənləşdirilməsi baxımından faydalı olacaq, ölkələrimizin rifahının yüksəlməsinə töhfə verəcəkdir.

Bir daha sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 sentyabr 2023-cü il**

# MDB Baş Prokurorları Əlaqələndirmə Şurasının 33-cü iclasının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçı dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının Bakı şəhərində keçirilən 33-cü iclasında səmimiyyətlə salamlayıram.

Azərbaycan MDB-nin fəal üzvü olmaqla bu təşkilatın daha da möhkəmləndirilməsi istiqamətində səylərin artırılmasını vacib hesab edir. MDB çərçivəsində təhlükəsizliyin və sabitliyin qorunması, əməkdaşlığın daha da gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Hörmətli qonaqlar, qanunun aliliyi, insan hüquq və azadlıqlarının müdafiəsi hər bir hüquqi dövlətin əli məqsədini təşkil edir. Bu baxımdan, prokurorluq orqanlarının qanunçuluğun və hüquq qaydasının təmin edilməsində və möhkəmləndirilməsində, cinayətkarlığa qarşı mübarizədə müstəsna rolu vardır.

Transmilli mütəşəkkil cinayətkarlıq hər bir dövlətin sosial, iqtisadi və siyasi sabitliyi üçün ciddi təhlükədir. Müasir dünyada qlobal və regional təhlükələrin artdığı bir zamanda MDB iştirakçı dövlətlərinin prokurorlarının qarşısında yeni və mürəkkəb çağırışlar durur. Bu təhdidlər beynəlxalq hüquq mühafizə potensialının artırılmasını, qanunsuz şəbəkələrin zərərsizləşdirilməsi üçün birgə fəaliyyət göstərməyi, ənənəvi və yeni, o cümlədən terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, korrupsiya, kibercinayətkarlıq, çirkli pulların yuyulması və digər cinayət növlərinin qarşısının alınmasını tələb edir.

Əminəm ki, birgə səyləriniz dövrümüzün neqativ cərəyanlarına vaxtında reaksiya verməyə, dövlətlərimizin və vətəndaşlarımızın etibarlı müdafiəsini təmin etməyə imkan verəcək.

Hesab edirəm ki, MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının bugünkü iclası regionumuzda insan hüquq və azadlıqlarının etibarlı qorunmasına, cinayətkarlığın bütün formalarına qarşı mübarizədə səylərimizin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə təkan verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, iclasın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 sentyabr 2023-cü il**

# “Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1416; 2020, № 7, maddə 890) 1-ci hissəsində “88” rəqəmləri “98” rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Fərmanın 1-ci hissəsi 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 sentyabr 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 897, № 8, maddə 1690; 2019, № 1, maddə 60, № 3, maddələr 411, 416, № 6, maddə 1014, № 12, maddə 1923; 2021, № 5, maddə 434; 2022, № 8, maddə 891, № 10, maddə 1134) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi”nin 6.2-ci bəndində “893 000 000 (səkkiz yüz doxsan üç milyon)” sözləri “980 700 000 (doqquz yüz səksən milyon yeddi yüz min)” sözləri ilə əvəz edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsinin icrası “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1947 nömrəli Fərmanının 1.11.6.7.1-ci yarımbəndi ilə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond) nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) üçün 2023-cü ilin dövlət büdcəsindən Fonda ayrılan 87 700 000 (səksən yeddi milyon yeddi yüz min) manat hesabına təmin edilsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

**4.** Fond bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 sentyabr 2023-cü il**

# Liviya Dövləti Prezident Şurasının Sədri Zati-aliləri cənab Məhəmməd Yunis Əl-Mənfiyə

**Zati-aliləri!**

Ölkənizdə baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və irimiqyaslı dağıntılar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Liviya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 sentyabr 2023-cü il**

# XİN: Yuri Kimin uydurmaları məyusluq doğurur

**ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifələrini icra edən Yuri Kimin səsləndirdiyi, ümumiyyətlə, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqları əks etdirməyən fikirləri, sadəcə, məyusluq doğurur.**



Bu sözlər XİN-in mətbuat katibi Ayxan Hacızadənin ABŞ Senatında keçirilmiş dinləmələrdə səsləndirilən iddialara dair şərhində yer alıb.

A.Hacızadə bildirib ki, ilk növbədə, qeyd olunan dinləmələrin təşəbbüskarının və təşkilatçısının ölkəmizə qarşı ənənəvi düşmən mövqeyi ilə seçilən ermənipərəst senator Robert Menendezin olduğu məlumdur. Sözügedən senatora qarşı korrupsiya ittihamlarının mövcud olduğu və istintaq prosesinin aparıldığı bir dövrdə bu şəxsin hələ də erməni diasporunun radikal nümayəndələrinin saxta iddialarını əsas götürməklə Azərbaycana qarşı fəaliyyətlə məşğul olması onun üçün siyasi etik qaydaların yad məfhum olduğunu növbəti dəfə sübut edir.

Bu fikirlər 2023-cü il sentyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ Dövlət katibi Antoni Blinken arasında təmaslar zamanı Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni vaxtda istifadə məsələsində razılaşma ilə ziddiyyət təşkil edir.

“Ermənistan ilə Azərbaycan arasında müharibənin bitmədiyini iddia edən xanım Kimə xatırlatmaq istərdik ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra tərəfimizdən hər iki dövlətin ərazi bütövlüyü və suverenliyi əsasında qarşı tərəfə sülh təklif olunub”.

Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə bağlı “Dağlıq Qarabağın erməni xalqı”nın hüquq və təhlükəsizliklərinin sülh müqaviləsində öz əksini tapmasına istinad edilməsi, özündə Ermənistanın məqsədyönlü şəkildə ərazilərimizdə separatizmi təşviq məqsədilə istifadə etdiyi terminologiyanı ehtiva etməklə ərazi bütövlüyümüz və suverenliyimizə ziddir. Eyni zamanda, bu istinad Ermənistanın etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində həmin bölgədən didərgin düşən azərbaycanlıların da hüquqlarına hörmətsizlikdir.

“Hərbi hücum” iddiası ilə bağlı isə Ermənistandan fərqli olaraq, Azərbaycanın heç vaxt mülki əhaliyə qarşı güc tətbiq etmədiyini vurğulayaraq, əksinə, milli səviyyədə erməni sakinlərimizin cəmiyyətimizə reinteqrasiyası sahəsində tədbirlərin görüldüyü, bu istiqamətdə Ermənistan və onun qondarma qurumu tərəfindən törədilən manevrələrə baxmayaraq, qərarlı olduğumuzu bildiririk. Reinteqrasiya prosesi ölkəmizin daxili məsələsidir və daxili işlərimizə müdaxilə qəbulolunmazdır.

ABŞ tərəfinin timsalında beynəlxalq ictimaiyyətə, Ermənistanın qarayaxma kampaniyasına uymayaraq, bölgədə qeyri-sabitliyə rəvac verən bu kimi addımların bir parçası olmamağı tövsiyə edirik”, - deyə Azərbaycan XİN-in rəsmisi vurğulayıb.

**XQ**

# 25 ailənin də Füzuli həsrəti bitdi



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Səhər saatlarında növbəti köç karvanı ilə Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınan 25 ailə Füzuliyə çatıb.**

Yenidən çiçəklənən Füzuli doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 25 ailə olmaqla, 73 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuli şəhərinə çatan ailələr Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən böyük sevinclə qarşılanıblar.

Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Füzuliyə qayıdan ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alıblar.

Bununla da Füzuli şəhərində 144 ailə olmaqla, 514 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**XQ**

# Növqələrimiz atəşə tutulub

**Sentyabrın 15-i saat 21:15-dən 22:05-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Göysu yaşayış məntəqəsindən Azərbaycan Ordusunun Gədəbəy rayonunun Qalakənd ərazisindəki mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.**

Bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətdə cavab tədbirləri görülüb.

**XQ**

# ABŞ Senatında ermənipərəstlik şousu

## Menendezlərin Qarabağ “təəssübkeşliyinə” sözardı

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, məqsəd Ermənistana dəstəkdir. Ancaq dəstək necə əsaslandırılır? Hiss olunur ki, R.Menendez ermənipərəst ritorikasının vacibliyini Rusiya amilinə kökləmək yolunu tutur. Təxminən belə: Ermənistan Cənubi Qafqazda Rusiyaya qarşı mübarizənin qalasıdır və onun müdafiəsinə ehtiyac var. Bu ehtiyacın qarşılanması üçün isə ölkənin Qarabağ avantürasına dəstək göstərilməlidir.

Digər bir məqam isə uzun müddət Moskvanın təsiri altında olan İrəvanın Rusiyanın orbitindən qoparmağın Birləşmiş Ştatların milli maraqlarından irəli gələn hal kimi qiymətləndirilməsidir. Menendezin həmkarı, senator Pat Rikketsin Y.Kimə ünvanladığı, belə demək mümkünsə, suallı manifestə diqqət yetirək: “SSRİ-nin dağılmasından sonra Ermənistan Rusiyanın təhlükəsizlik sahəsində mühüm tərəfdaşına çevrildi. Burada Rusiyanın hərbi bazalarından biri yerləşir. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür və əsasən Dağlıq Qarabağın təhlükəsizliyində oynadığı rola görə Rusiya ilə münasibətlərinə böyük önəm verir. Lakin Rusiyanın 2020-ci il münaqişəsinə qarışmaq istəmədiyini nəzərə alsaq, Ermənistanın onunla uzunmüddətli tərəfdaşlığına şübhə etməyə başladığı və Qərbə meyil etdiyi görünür. Bu ayın əvvəlində Ermənistan baş naziri bildirib ki, Rusiyaya olan ümidlər özünü doğrultmur. Rusiyanın öz ordusunu silahlandırmaq problemi var. Ermənistan baş nazirinin sözlərinə görə, təhlükəsizlik məsələlərində bir tərəfdaşa güvənmək strateji səhvdir. Bundan sonra Ermənistan ilk dəfə olaraq Ukraynaya humanitar yardım göndərib. Bu həftə erməni-amerikan hərbi təlimləri başlayıb. Bu, Kreml üçün açıq-aşkar və həyəcanverici haldır. Ermənistanın son hərəkətləri Rusiyanın daimi dönüşüdürmü? Yoxsa Moskvanı Dağlıq Qarabağa daha çox qarışmağa sövq etməyə çalışırlar?”

Bəli, məqsəd Birləşmiş Ştatların Ermənistana fəal yardımı xüsusunda ölkənin Cənubi Qafqazdakı gərginliyə daha aktiv qoşulmasına nail olmaqdır. Vaşinqton bu platformaya açıq müdaxilə etsin və Azərbaycanı cəzalandırsın. Özü də, guya, ruspərəst mövqe tutan Azərbaycanı. Hər halda belə bir təəssüratın formalaşdırılması, yəni Bakını Moskvaya yaxın göstərmək cəhdlərinin olduğu aşkardır. Ancaq məqsədə çatmaq naminə seçilmiş metod, gətirilmiş arqumentlər son dərəcə primitv təsir bağışlamaqdadır.

ABŞ kimi ölkədə senator missiyasını yerinə yetirən şəxslərin səfehliyi heyrət doğurur. Söhbət heç ondan da getmir ki, Rikkets, yaxud onunla eyni ağılda olan kimsə Azərbaycanın ABŞ üçün əhəmiyyətini qiymətləndirə bilmir. Bu adamlar, ümumiyyətlə, heç Ermənistanı da tanımırlar. Yuxarıdakı sitat naşılıqdan başqa bir şey deyil.

Birincisi, Rikketsin fikirləri son zamanların ümumi şablonudur. İkincisi, o, Ermənistanın 2018-ci ildə Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə Rusiyanın orbitindən çıxdığını bilmir. O elə danışır, sanki İrəvan iqtidarı birdən-birə görüb ki, Kreml ona heç bir kömək etmir, o səbəbdən də üzünü Qərbə çevirib.

Bəli, Menendez gerizəkalıları ətrafına yığıb. Çox güman, erməni lobbi və diaspor təşkilatlarından aldığı maliyyə vəsaitindən onlara da nə isə ötürüb. Yeri gəlmişkən, qatı ermənipərəst senatorun alıb-vermək işlərindən söz açacağıq. İndilik Y.Kimin Rikketsin sualına verdiyi cavaba diqqət yetirək. Onu da deyək ki, xanım Kim siyasi dünyagörüşü baxımından dayaz məlumatlı senatorlardan bir o qədər fərqlənmir. O bildirir ki, 2022-ci ilin fevralından sonra Rusiya ilə qonşu olan bütün ölkələr “gözləri açıq yatırlar”. Hər kəs Rusiyanın qonşularının suverenliyinə və ərazi bütövlüyünə sayğısızlığının açıq təzahürünü görür, başa düşür və rus qoşunlarının öz ölkələrinin ərazilərinə dəvət edilməsi məsələsinə, yeganə enerji təchizatçısı kimi Rusiyaya güvənməyə şübhə ilə yanaşır: “Bu, bizə bu ölkələrlə əlaqələri inkişaf etdirmək imkanı verir. Qoşunlarımız ilk dəfə ikitərəfli təlimlər keçirmək üçün Ermənistandadır və biz bu vəziyyətdən istifadəyə davam edəcəyik”.

ABŞ Dövlət Departameninin təmsilçisi Rikketsin “Ermənistan Rusiyanı Dağlıq Qarabağda fəallaşmağa sövq etmək istəyir, yoxsa doğrudan da, Rusiyadan qopmaq niyyətindədir? sualına cavabında bildirib: “Bu barədə danışmaq hələ tezdir. Amma, bu o demək deyil ki, biz vəziyyəti arzuladığımız nöqtəyə çatdırmağa çalışmamalıyıq. Və bu məqam Rusiyadan fərqli olaraq, bizim tərəfdaşımız olmaq üçün real qərardır. Ancaq buna nail olmaq üçün orada olmalıyıq. Ona görə Ermənistana dəstəyimiz və tərəfdaşlığımız vacibdir”.

***

Ancaq Ermənistan iqtisadi, hərbi və digər aspektlərdə Rusiyadan asılıdır. Ölkənin Qərbə doğru hərəkətini davam etdirəcəyi təqdirdə, Moskva məcburi tədbirlərə əl ata bilər. Qeyd edək ki, son zamanlar Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın açıqlaması, eləcə də ölkənin müxtəlif siyasi dairələrinin təmsilçilərinin bildirdikləri onu söyləməyə əsas verir ki, Paşinyan administrasiyasının Qərbə açdığı qucaq böyüdükcə, Ermənistanın fəlakətlə üzləşmək aqibəti yaxınlaşır. Yaxşı ki, Birləşmiş Ştatların başıboş senatorları heç olmasa, bu amili düşünə bilirlər. Elə Rikkets də düşünüb və onun dinləmələr zamanı Y.Kimə ünvanladığı növbəti sual da məhz qeyd etdiyimiz məqamla bağlıdır. Xanım diplomatın cavabı isə maraqlıdır. O deyir ki, Vladimir Putin və Rusiya iradələrinə tabe olmayan hər kəsə qarşı qisas hissi bəslənildiyini sübuta yetirdilər: “Bəli, biz bu məsələdə çox ayıq-sayığıq. Hadisələri diqqətlə izləməli, Ermənistana həm onun inkişafı, həm də müdafiə və təhlükəsizlik sahəsində tərəfdaşlıq istiqamətində məqbul olan dəstəyi artırmalıyıq ki, Ermənistan istədiyi dönüşü etsin”.

Deməli, ABŞ-da da Rusiyanın Ermənistanı əzə bilməsi ehtimalını nəzərdən keçirirlər. Y.Kimin açıqlaması isə göstərir ki, belə bir halın yaşanacağı təqdirdə, Vaşinqtonun İrəvana dəstəyi yalnız “qorxma” demək olacaq. Yəni, əməli fəaliyyətdən söhbət getməyəcək. Əslində, bütün dünya Birləşmiş Ştatların və Qərbin Rusiya ilə mübarizədə Ukraynaya dəstəyini gördü. Gördü ki, bu dəstək ölkəni xarabazara çevrilməkdən qurtarmır, əksinə böhranı daha da dərinləşdirir. O zaman sual yaranır: Ermənistan da Ukraynanın yolu ilə getmək istəyir? Nəzərə alaq ki, ikinci yardımsız-filansız birincidən qat-qat güclüdür və hələ güclü olduğu, üstəlik, xaricdən, kifayət qədər, böyük yardımlar əldə etdiyi halda, yenə uğur qazana bilmir. Əlbəttə, mövcud durumun qazanclısı



ABŞ-dır. O, Rusiyanı zəiflətdiyi qənaətindədir. Ancaq kiçik Ermənistan Rusiyanı əldən salmaq üçün nə dərəcədə münbit platformadır?

***

Necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Ermənipərəstlərin baxışında Vaşinqtonun Ermənistana görə Azərbaycandan vaz keçməyinin mümkünsüzlüyü anlayışı yoxdur. Ancaq Senatdakı dinləmələrin gedişi ilə bağlı məlumatların təhlili göstərir ki, mövzu, istər-istəməz, İrəvanın nə dərəcədə zəruriliyi amili üzərinə gəlir. Menendez və digərləri nə qədər Ermənistanın müdafiəsinin ABŞ-ın Rusyaya qarşı dirənişi baxımından vacibliyini vurğulasalar da, tərəddüdlər qalmaqdadır. Durum həm də ona görə tərəddüdlüdür ki, görünür, İrəvana tam mənada etimad yoxdur. Rusiyaya dönük çıxan, ABŞ-dan niyə üz döndərməsin? Bir halda ki, Ermənistan adlı dövlətin özünün düşünülmüş siyasəti istisnadır, o, daim müxtəlif qütblər arasında çirkin manevr yollarını nəzərdən keçirəcək. Belə yanaşma tərzinə isə əsla bel bağlanılmaz.

Əlbəttə, demək olmaz ki, Birləşmiş Ştatlar administrasiyası Azərbaycan–Ermənistan münasibətlərinə ədalətli mövqedən yanaşır. Laçın–Xankəndi yolu açıqdır. Oradan erməni əhali asanlıqla gedib-gələ bilir. Yəni, sərhədi keçib Ermənistana, yaxud əksinə hərəkət etmək imkanları var. Bəli, Azərbaycan digər yüklərin ölkəmizə buraxılmasına razı deyil. Əvvəla, Ermənistanın belə daşınmalar müstəvisində spekulyasiyaları nəzərə alınır. İkincisi, ölkə Qarabağ ermənilərinə humanitar yardım məsələsini siyasiləşdirib. Ən əsası isə İrəvan Laçın-Xankəndi yolunun açılmasını tələb etdiyi halda, separatçı rejim Azərbaycanın Ağdam-Xankəndi yolundan istifadəsinə imkan yaratmır. Bu, müstəqil Azərbaycanın suveren hüquqlarının pozulmasıdır. Bəs, Vaşinqtonun baş verənlərə reaksiyası necədir?

Azərbaycan–Ermənistan münasibətlərinin nizamlamasında vasitəçi funksiyasını üzərinə götürmüş ABŞ son vaxtlaradək problemə münasibətdə ədalətli kimi sayıla biləcək mövqe ortaya qoyurdusa, indi yalnız ermənipərəstliyi müşahidə edirik. Məsələn, Dövlət katibi Antoni Blinkenin verdiyi açıqlamalarda Laçın-Xankəndi yolunun dərhal açılmasına yönələn çağırışların sayı artmaqdadır. Belə çıxır ki, Azərbaycanın suveren ərazisi hamının sərbəst şəkildə gəlib-gedə biləcəyi “boz zona” olmalıdır?! Bu məntiq nə dərəcədə məqbuldur? Əlbəttə, tam qəbuledilməzdir. İndi Dövlət Departamentinin təmsilçisi Y.Kimin ermənipərəstlərin Senat yığıncağında söylədikləri də, əslində, Blinkenin dediklərindən bir o qədər fərqlənmir.

Ermənistanla Azərbaycan arasında sülhün əldə edilməsinin Vaşinqtonun milli təhlükəsizlik maraqlarından irəli gəldiyini, Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün Rusiya, Çin və İran kimi aktorların regiona mənfi təsirləri ilə mübarizə aparmağın zəruriliyini deyən xanım diplomat regionda sülhün bərqərarı naminə ciddi problemlərdən biri kimi etibarın olmamasından söz açıb. Bu isə Y.Kimin fikrincə, həm də illərlə davam etmiş münaqişə və gərginliyin nəticəsidir. Bəs, onun təbirincə vurğulasaq, Vaşinqton bütün tərəfləri konstruktiv işləməyə necə təşviq edir və həvəsləndirir? Bunu “Laçın dəhlizi dərhal açılmalıdır, mövcud istiqamətdə hansısa ləngimə olmamalıdır” söyləməkləmi həyata keçirmək istəyir? Bəlkə “ABŞ Dağlıq Qarabağ əhalisinə qarşı hansısa hücuma dözməyəcək” şəklində bəyanat verməkləmi? Görəsən, Vaşinqton Administrasiyasında anlayırlarmı ki, belə bəyanatlar Ermənistan rəhbərliyindəki, o cümlədən, erməni siyasi dairələrindəki illüziyanı daha da dərinləşdirir, sülhün yaranmasına mənfi təsir göstərir? Məsələni qavramaq çoxmu çətindir? R.Menendez kimi klassik ermənipərəstlərin qurduğu siyasi tamaşada rol almaq necə, Birləşmiş Ştatların milli maraqlarına cavab verir? Ölkənin ali rəhbərliyi doğrudanmı hesab edir ki, bu yolla nəyəsə nail olacaq? Suallar çoxdur, cavablar isə yoxdur.

***

Sonda əvvəldə bildirdiyimiz kimi, Senatdakı siyasi tamaşanın “ssenari müəllifi” R.Menendezdən söz açaq. Görəsən, ABŞ rəsmiləri “Nyu-York Tayms”ı oxumurlar? Qəzet vaxtilə yazırdı ki, Menendezin həyat yoldaşı 400 min dollar qızıl külçə satıb. Amerika və 400 min dollarlıq qızıl külçə? Təsəvvür edirsinizmi? Digər tərəfdən, 2006-cı ildən ABŞ Senatının üzvü olan Menendez Türkiyə və Azərbaycanda türk düşməni kimi tanınır. Onun 400 min dollarlıq qızıl külçəsi satan arvadı isə senatorun 2020-ci ildə ailə qurduğu erməni əsilli Nadine Arslanyandır. Cənab Menendez N.Arslanyanı necə sevibsə, onunla evləndikdən sonra türklərə qarşı düşmənçilik hisslərinə köklənib. Təbiidir ki, Amerika Erməniləri Milli Komitəsinin sevimlisinə çevrilib.

Onu da deyək ki, senator vaxtilə N.Arslanyanın 2014-cü ildə ipoteka ilə aldığı mənzilin aylıq 1. 897 dollar ödənişi verməkdə üzləşdiyi çətinliyi də dəf edib. Erməni əsilli xanım 2020-ci ildəki çıxışlarının birində Menendezin köməyilə Senat tərəfindən 1915-ci ilin qondarma “erməni soyqırımı”nın tanınması üçün işlər apardığını deyib. Yəni, sevgi Robertin üzərinə belə bir “ipoteka öhdəliyini” də yükləyib.

Bəli, adı çoxsaylı korrupsiya qalmaqallarında hallanan R.Menendez bir necə aydır özü kimi ermənipərəst senatorları ətrafına toplayıb Laçın yolunun məhz dəhliz statusunda açılmasına çalışır. İstəyi və tələbi isə budur – ABŞ Azərbaycana təzyiq göstərsin!

“Nyu–York Post” qəzetinin vaxtilə “utanmaz və həyasız korrupsioner” adlandırdığı R.Menendez Birləşmiş Ştatların Azərbaycana göstərdiyi illik hərbi yardımı dayandırmalı, Ermənistana maliyyə dəstəyi verməli olduğunu təşviq edir. Senatorun bir “arzusu” da var – ABŞ Konqresi 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə qəbul etdiyi "Azadlığa Dəstək" Aktına qəbul olunmuş 907-ci düzəlişin yenidən qüvvəyə minməsi, nəticədə Vaşinqtonun Bakıya birbaşa dövlət yardımının qadağan olunması.

***

Bütün bunlardan sonra ABŞ Cənubi Qafqaz müstəvisində fəallaşmaq, Rusiyaya qarşı mübarizə aparmaqdan danışır. Hələ onun vasitəçilik imicinin korlanmasını bir kənara qoyuruq. Birləşmiş Ştatlar Administrasiyası Menendez kimilərin ölkənin ictimai rəyinə, hakimiyyətinə dürtmək istədiyi ermənipərəstlik mərəzi iləmi Cənubi Qafqazda söz sahibi olmağa çalışır? Tamam, anlayırıq ki, Rusiyanın bölgədə öz oyunu var, ölkənin bəzi siyasi dairələri də ağına-bozuna baxmadan ermənipərəstlik edir, ümumən destruktiv mövqe tuturlar.

***Ə.CAHANGİROĞLU***
***XQ***



# Ermənistan dövlətçiliyini itirmək təhlükəsi qarşısında

## *Xaçikyan həyəcan təbili çalır*

**(əvvəli 1-ci səhifədə)**

Bəli, A.Xaçikyan da özünün baxışları ilə anti-Paşinyan mövqe tutsa da, politoloqun fikirlərinin reallıqdan uzaq olmadığı vurğulanmalıdır. Onun sözlərinə görə, Ermənistan dövlətçiliyinə təhdidlərin mövcudluğuna baş nazirin özü də eyham vurub. Ancaq Xaçikyanın fikrincə, bunların fonunda hakimiyyətin hərəkətləri qəbuledilməzdir: “Görünür, Ermənistanın məğlub olması üçün hər şey edilir. Biz, deyəsən, qəsdən məğlubiyyət yolu ilə gedirik. Yəni, vəziyyəti daha da gərginləşdirmək üçün addımlar atırıq”.

A.Xaçikyan, eyni zamanda, Ermənistana artan təhlükəsizlik təhdidləri fonunda hakimiyyətin anti-Rusiya addımlarına qarşı çıxıb. O deyib ki, bu yolla ölkə iqtidarı Bakı üçün imkanları genişləndirir, ona yenidən Moskva ilə razılığa gəlmək imkanı verir. Ekspert bu qənaətdədir ki, Nikol və komandası Rusiya üçün Cənubi Qafqazda ikinci cəbhə açmağa cəhd göstərir və Qərbin razılığı ilə reallaşdırılan bu xətt Cənubi Qafqazda yeni eskalasiya mühiti doğurmaq potensialındadır.

“Dünya çox sürətlə böyük müharibəyə doğru irəliləyir və biz ətrafımızda baş verənləri başa düşməliyik. Təkcə Ukraynada deyil, Qara dənizdə də eskalasiya müşahidə olunur. Qərb Ukraynaya uzaqmənzilli raketlər verməyi planlaşdırır, Rusiya ərazisində hər yerdə pilotsuz təyyarələr vurulur”, – deyən erməni politoloq Moskvadan getdikcə daha çox “Ermənistanın Qərbyönlü hakimiyyəti Rusiyanı Türkiyə və Azərbaycana qarşı müharibəyə sürükləməyə və bununla da ikinci cəbhə yaratmağa çalışır” kimi bəyanatların eşidilməyə başlandığını vurğulayıb.

***

Məlumdur ki, Ermənistan baş naziri, eləcə də ölkə hakimiyyətində təmsil olunan şəxslər son zamanlar Rusiyanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməməkdə günahlandırırlar. Hətta Ermənistan parlamentinin spikeri bir qədər də “irəli” gedərək belə fikir səsləndirib ki, Moskva sözügedən bəyanatla Qarabağı Azərbaycana verib. Doğrudur, Simonyanın bu sözlərinə qarşılıq Rusiyadan da reaksiyalar gəldi. Həm ölkə Prezidenti Vladimir Putin, həm də Xarici işlər naziri Sergey Lavrov bildirdilər ki, N.Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirdiyi Praqa (6 oktyabr 2022-ci il) və Brüssel (14 may 2023-cü il) görüşlərində əldə olunmuş razılığa imza atmaqla, Qarabağı Bakının yurisdiksiyasında olan ərazi kimi tanıdı. Yəni, bu, o deməkdir ki, İrəvanın Moskvanı erməni mənafelərini qurban verməkdə günahlandırması cəfəngiyyatdır.

Ancaq onu da deməliyik ki, Paşinyan administrasiyası “Rusiya üçtərəfli bəyanatla Qarabağı Azərbaycana verdi” ritorikasını gündəmə gətirməklə başqa məqsədi güdür. Bu kəsim belə düşüncədədir ki, özünün hazırkı fəaliyyəti Qarabağı geri qaytarmağa hesablanıb. Mövcud xüsusda bölgə ermənilərinin hüquq və təhlükəsizliyi məsələsi əsas götürülür. Ermənistan hakimiyyəti çalışır ki, bu məsələ Azərbaycanla bağlanacaq sülh müqaviləsində əksini tapsın. Beləliklə, Qarabağ avantürası fonunda Azərbaycana qarşı ərazi iddiası varlığını qorusun. Nəzərə alaq ki, bu qoruma həm də Rusiyanın vaxtilə təklif etdiyi Qarabağa status məntiqinə alternativ kimi irəli sürülür. Yəni, dolayısı ilə bildirilir ki, Ermənistana Rusiya Qarabağa görə lazım idi, onun da çarəsini, Paşinyanın komandasının fikrincə, özləri tapıblar. Deməli, artıq Moskvaya ehtiyac yoxdur.

Digər tərəfdən, Ermənistan Rusiyanın ona lazım olmadığını Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı timsalında da göstərməyə çalışır. N.Paşinyan və digər erməni rəsmiləri qurumun ölkələrinin təhlükəsizliyinin qorunmasında aciz mövqe tutduğunu bildirirlər. Mövcud anlamda Azərbaycanın 2022-ci ilin sentyabrında, guya Ermənistanın ərazisini işğal etdiyi və KTMT-nin bunu susqunluqla qarşıladığı qabardılır.

Onu da vurğulayaq ki, istər Qarabağ avantürasının fərqli, daha doğrusu, Rusiyanın status egidasından kənar davam trayektoriyası, istərsə də Moskvanın hakim rol oynadığı KTMT-ni nüfuzdan salmaq cəhdləri, müvafiq olaraq Birləşmiş Ştatların və digər Qərb dairələrinin Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə əlaqədar çağırışları Ermənistanın xarici siyasət konturlarında yeni istiqamətin göstəriciləri kimi diqqət çəkməkdədir. Əslində, buna yeni istiqamət demək olmaz. Onsuz da Paşinyan Qərb meyilli idi. Sadəcə, birinci dəfə Qərbə arxalanıb müharibəyə başladı və acınacaqlı durumla üzləşdi. Müharibənin üzərindən, demək olar, üç ilədək vaxt keçib və görünür, Nikol yenə onu 44 günlük savaşa aparan məntiqi gücləndirmək yolu tutur.

A.Xaçikyan isə əsaslandırmaq istəyir ki, Nikolun tutduğu yol son dərəcə yanlışdır. Politoloqun Ermənistanın dövlətçiliyinin iflası baxımından, belə demək mümkünsə, çaldığı həyəcan təbili də bununla əlaqədardır. Siyasi analitik hadisələrin davamı olaraq, Ermənistan rəhbərliyinin yaxın zamanlarda Rusiyadan Cənubi Qafqazı tamamilə tərk etmək yönümlü açıq çağırışın səslənməsi ehtimalını qabardır. Onun fikrincə, Qərbin Moskva əleyhinə ikinci cəbhəsi bu zaman açılacaq.

Ancaq A.Xaçikyan Rusiyanın aktiv müdaxiləsi fonunda Qərbin buna qarşı hansısa ciddi tədbir görmək istəklərinə də şübhəli yanaşır. Politoloqun qənaətincə, məhz belə bir durumda, daha doğrusu, hadisələrin bu cür inkişafını tapacağı təqdirdə, Ermənistanın bir dövlət kimi Yer üzündən tamamilə silinməsi məsələsi gerçəkləşə bilər. Hər halda Kremlin səbri də müəyyən yerə qədərdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı yeni mərhələdə



***Mən ötən il və bu il bütün Mərkəzi Asiya ölkələrinə səfər etmişəm və bu ölkələrin rəhbərləri Azərbaycana səfər ediblər. Bu gün bizim ikitərəfli münasibətlərimizdə daha çox dinamizm var. Birincisi, biz buna ehtiyacın olduğunu görürük. Digər tərəfdən isə bizim hər zaman gözəl münasibətlərimiz olub. Eyni zamanda, daşımalar marşrutları mövzusu daha fəal əməkdaşlığı diktə edir. Beləliklə, əminəm ki, Xəzər dənizi ilə yükdaşımaların illik statistikasına nəzər saldıqca biz rəqəmlərin artacağının şahidi olacağıq.***

***Azərbaycan Prezidenti İlham Əliyevin bu il iyulun 22-də "China Global Television Network" telekanalında yayımlanan müsahibəsindən***

**(əvvəli 1-ci səhifədə)**

Əhməd bəy yarızarafat, yarıgerçək dedi ki, bu məkandakı ölkələr Azərbaycanı ovuc içərisində saxlamalıdırlar və saxlayacaqlar. Çünki adıçəkilən ölkələr həm Azərbaycanın geosiyasi imkanlarından yetərincə səmərə götürmək inkanına malikdirlər, həm də Bakının son otuz ildə yeritdiyi xarici siyasət kursu bu dövlətlərin maraqlarına uyğundur. Kollecdə tarix müəllimi işləyən həmsöhbətimin fikrincə, Azərbaycanın loqistik imkanları Şimal–Cənub və Şərq – Qərb istiqamətində olan bütün nəqliyyat layihələrinin icrasına və fəaliyyətinə kömək etmək iqtidarındadır. Dünyanın aparıcı dövlətlərinin hamısının Azərbaycana dost gözü ilə baxması da məhz bu mənbədən qaynaqlanır...

Azərbaycan Prezidenti İlham Əliyevin Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə fəxri qonaq qismində iştirak etdiyi zaman yadımıza düşən ilk məqamlardan biri də odur ki, ulu öndər Heydər Əliyev bu əməkdaşlığın gənc müstəqil Azərbaycan dövləti üçün olduqca böyük əhəmiyyət kəsb etdiyini hələ müstəqilliyimizin ilk illərində – 1994-cü il oktyabrın 18-də İstanbulda Türk Dövlətləri Başçılarının 2-ci Zirvə toplantısının açılışında söylədiyi nitqində demişdi. "Xəzərin o biri sahilndəki" dövlətlərlə təmasın əhəmiyyətindən danışan ümummilli lider xatırlatmışdı ki, həmin ölkələrlə Azərbaycan arasında tarixi ənənələr, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur. Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir adət-ənənələrdən istifadə etmişik və bir-birimizə həmişə kömək etmişik: "Azərbaycan ilə Xəzər dənizinin o tərəfində olan ölkələr arasında əlaqə həmişə sıx olub, çox etibarlı olub və mən bu gün artıq müstəqil dövlət olan dost, qardaş ölkələrin başçıları ilə görüşərkən, burada, İstanbulda bu tarixi bir daha yada salmaq istəyirəm və bir daha bildirmək istəyirəm ki, biz bu dostluq, qardaşlıq ənənələrinə həmişə sadiq olmuşuq, bundan sonra da sadiq olacağıq".

Fəxrlə yada sala bilərik ki, həmin tarixi ənənə bu gün heç zaman olmayan bir səviyyədə davam etdirilir. Prezident İlham Əliyev elə bir il olmur ki, azı iki-üç dəfə Xəzərin o biri sahilindəki ölkələrə səfər etməsin. Doğrudur, cənab Prezident bu əməkdaşlığın inkişaf etdirilməsinə 2003-cü ilin payızından bəri böyük töhfələr verir. Amma işğalçı və qəsbkar Ermənistan üzərindəki şanlı Qələbəmizdən sonra bu əlaqələr daha da sıxlaşıb və təmasların səmərəsi artıb. O da faktdır ki, dövlət başçımız həmin coğrafiyadakı ölkələrə təkcə rəsmi və digər məzmunlu səfərlərə getmir, həm də onu müxtəlif tədbirlərə dəvət edirlər. Elə bu dəfə getdiyi tədbirə də məhz fəxri qonaq kimi dəvət olunmuşdu.

Ekspertlər yazırlar ki, Prezident İlham Əliyevin son illər müxtəlif beynəlxalq tədbirlərə dəvət edilməsi Azərbaycanın artan nüfuzundan xəbər verir. Məsələn, onun Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitinə, Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısına, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə toplantısının plenar iclasına, "Avropa Siyasi Birliyi" Zirvə toplantısına xüsusi qonaq qismində dəvət olunması Azərbaycanın beynəlxalq nüfuzunun və dünyada artan rolunun əyani göstəricisidir. Dünən isə Prezident İlham Əliyev Tacikistanda keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşünə fəxri qonaq qismində dəvət olunmuşdu. Mütəxəssislərin fikrincə, həmin tədbirin tarixində ilk dəfədir ki, regiondankənar ölkənin rəhbəri iştirak edir. Fikrimizcə, bu, dövlətimizin başçısının şəxsi nüfuzunun, ölkəmizin beynəlxalq arenada sülhün və təhlükəsizliyin təmin olunmasına, əməkdaşlığın genişlənməsinə töhfələrinə verilən yüksək qiymətin bariz nümunəsidir.

Prezident İlham Əliyevin fikrincə, Mərkəzi Asiya və Azərbaycan gələcəkdə nəqliyyat, təhlükəsizlik məsələləri baxımından daha çox inteqrasiyalaşmış ola bilər: "Çünki Mərkəzi Asiya ölkələri üçün nəqliyyat, təhlükəsizlik məsələləri və ixrac bazarlarına çıxış bu gün bir müddət əvvəl olduğundan daha çox əhəmiyyət kəsb edir. …Biz Mərkəzi Asiya ilə Azərbaycan arasında regional əməkdaşlığa töhfə vermək üçün əlimizdən gələni edirik. …Biz Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələri ilə, Türkiyə ilə birlikdə Türk Dövlətləri Təşkilatındayıq, Tacikistanla çox fəal siyasi və iqtisadi dialoqumuz var. Bu, bir növ bu günün reallığıdır. Əlbəttə, bunu daha da fəallaşdırmaq vacibdir. Son iki ildə mənim Mərkəzi Asiyadan olan tərəfdaşlarla qarşılıqlı əlaqələrim və qarşılıqlı səfərlər misli görünməmiş dərəcədə yüksəkdir".

Prezident Kitabxanasının materiallarında oxuyuruq ki, rəsmi Bakının səmimi və sədaqətli münasibətlərinə cavab olaraq, Mərkəzi Asiya dövlətləri də yaxın, dost, qardaş ölkə olan Azərbaycanla əlaqələrə böyük önəm verirlər. Təsadüfi deyil ki, Vətən müharibəsində və ondan sonrakı dövrdə bu regionun ölkələri Azərbaycanın haqq işinə dəstək veriblər. Özbəkistan, Qırğızıstan və Qazaxıstan bu yaxınlarda Azərbaycanın Qarabağ bölgəsində qondarma qurum tərəfindən keçirilmiş "prezident seçkiləri"ni tanımadıqlarını bəyan ediblər. Region ölkələri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-yenidənqurma işlərinə töhfələrini davam etdirirlər.

Bundan başqa, işğaldan azad edilmiş ərazilərimizin bərpası prosesində də Türkiyə başda olmaqla, qardaş ölkələrin hamısı cani-dildən iştirak edirlər. Məsələn, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən və bu yaxınlarda açılışı baş tutan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb xüsusi vurğulanmalıdır. İlk dövlət səfərini Azərbaycana edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ölkəmizlə əlaqələrə yüksək diqqət göstərdiyini vurğulayaraq bildirib: "Azərbaycan bizim üçün münasibətlərin tamamilə yeni mərhələyə yüksəldiyi ən yaxın ölkələrdən biridir". Bundan başqa. Qazaxıstan tərəfindən Füzulidə Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzi inşa ediləcək.

Bir sözlə, Azərbaycan Türk Dövlətləri Təşkilatı, eləcə də Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı tərəflərin hamısının maraq və mənafelərinin qorunması şərti ilə genişləndirmək üçün lazım olan bütün addımları atır. Dövlət başçımız xatırladır ki, Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da bu birliyin amallarına sadiq qalacaq.

Xalqımız və dövlətimiz əmindir ki, Azərbaycanın beynəlxalq əlaqələri bundan sonra daha da genişlənəcək. Nəticədə Şərqlə Qərb arasında mühüm tranzit ölkə, Avropanın etibarlı enerji təchizatçısı kimi dövlətimizin önəmli rolu bundan sonra daha da artacaq.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# ABŞ Ermənistanda fəallığını artırır

## *Hayastanda hərbi təlimlər keçirən Vaşinqton Qafqaz danışıqları üzrə baş müşavirini bölgəyə göndərib*

**Son vaxtlar ABŞ-ın regionda baş verən proseslərdə xüsusi fəallıq göstərdiyi diqqətdən yayınmır. Rəsmi Vaşinqtonun təşəbbüsü ilə ABŞ ərazisində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında bir neçə dəfə görüş keçirilib. Hətta Virciniya ştatının Arlinqton şəhərində iki ölkənin XİN başçılarının görüşü son illərdə ilk dəfə olaraq, bir neçə gün (2023-cü il mayın 1-dən 4-dək) davam etməsi ilə fərqlənib.**
**Bir ay sonra, iyunun 27-29-da Ceyhun Bayramov və Ararat Mirzoyan arasında yenə Arlinqtonda danışıqlar aparılıb. Vaşinqtonda olarkən onlar Dövlət katibi Antoni Blinken və ABŞ Prezidentinin köməkçisi və milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla görüşüblər.**

Bu danışıqlardan az sonra – avqustun 3-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono regiona səfər edib. O, Xarici işlər naziri C.Bayramovla danışıqlar aparıb, Prezident İlham Əliyev tərəfindən qəbul olunub. Dövlətimizin başçısı görüş zamanı Azərbaycan tərəfinin sülh prosesini davam etdirmək əzmini bir daha təsdiqləyib və tezliklə danışıqlar çərçivəsində müzakirə olunan əsas istiqamətlər üzrə nəticələrin əldə ediləcəyinə ümidvar olduğunu bildirib.

Sentyabrın 1-də isə Dövlət katibi Blinken Azərbaycan Prezidentinə zəng edib. Telefon söhbəti zamanı Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




***

Onu da qeyd edək ki, sentyabrın 11-dən Ermənistanda erməni-amerikan birgə hərbi təlimi keçirilir. Beynəlxalq sülhməramlı missiyalarda iştiraka hazırlıq çərçivəsində Ermənistan sülhməramlı briqadasının "Zar" təlim mərkəzində keçirilən "Qartal tərəfdaş – 2023" birgə hərbi təlimində 85 amerikalı və 175 erməni hərbçi iştirak edir. Sentyabrın 14-də ABŞ Quru Qoşunlarının Avropa və Afrika üzrə Baş Qərargah rəisinin müavini, briqada generalı Patrik Ellis və 10-cu dağ diviziyasının komandiri, general-mayor Qreqori Anderson hərbi təlimin gedişini müşahidə ediblər.

Generalları müşayiət edən ABŞ-ın Ermənistandakı səfiri Kristina Quinn deyib: "Qartal tərəfdaş" təlimi Ermənistanla uzunmüddətli əməkdaşlığımızın sübutudur və onun əsasını təhlükəsizlik və sülhməramlılıq sahələrində əməkdaşlıq təşkil edir".

General-mayor Qreqori Anderson isə bildirib ki, Vaşinqtonun Ermənistanla çoxtərəfli əməkdaşlıq əlaqələri var: "Birləşmiş Ştatlar Ermənistanın silahlı qüvvələrinə, xüsusən də kütləvi qırğın silahlarının yayılmaması və sülhməramlı fəaliyyət kimi mühüm sahələrdə potensialın inkişafı sahəsində ardıcıl dəstək verib".

Yeri gəlmişkən, qeyd edək ki, birgə hərbi təlimlər Rusiya rəhbərliyində böyük narazılıq doğurub. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Ermənistan ərazisində erməni–amerikan birgə hərbi təlimləri sayıqlıq tələb edir. O, əlavə edib ki, təlimlər regionda vəziyyətin sabitləşməsinə kömək etmir.

Rusiya Xarici işlər nazirinin müavini Sergey Ryabkov deyib ki, ölkəsi təlimin Moskvada narahatlıqla qarşılandığını İrəvandakı müttəfiqlərinin diqqətinə ən ciddi şəkildə çatdırıb. "Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzrə müttəfiqdir. Biz hesab edirdik və indi də hesab edirik ki, müttəfiqlik ruhunda KTMT üzvləri ilə təlimlərin keçirilməsi praktikasına riayət etmək lazımdır", – deyə diplomat TASS-ın sualını cavablandırarkən deyib.

Rusiya XİN başçısının digər müavini Aleksandr Qruşko isə Ermənistanın NATO-ya üzvlüyünün zəruriliyi ilə bağlı bəyanatları "böyük fantaziya" adlandırıb. Qeyd edib ki, Ermənistan KTMT-nin üzvüdür və biz reallıqdan çıxış edirik. Qruşko vurğulayıb ki, Moskva və İrəvan hərbi-siyasi əməkdaşlığı gücləndirməkdə davam edəcək: "Ermənistan bizim müttəfiqimizdir və biz təhlükəsizlik sahəsində bir-birimizə arxalanırıq. Əminəm ki, bu məqam uzun illər bizim ikitərəfli münasibətlərimizdə həlledici rol oynayacaq".

Şifahi açıqlamalarla kifayətlənməyən Rusiya xarici siyasət idarəsi sentyabrın 8-də mətbuat üçün "Ermənistandakı vəziyyətlə bağlı" sərlövhəli açıqlama da yaymışdı. Açıqlamada qeyd olunurdu ki, Ermənistanın rəsmi dairələrində və siyasi elitada KTMT çərçivəsində Rusiya Federasiyası ilə ikitərəfli əsasda müttəfiqlik əlaqələrinin, eləcə də 2020-2022-ci illərdə Moskva, İrəvan və Bakı arasında imzalanmış üçtərəfli sazişlər paketinin məqsədəuyğun olub-olmadığına dair müəyyən şübhələr yaranıb: "Bütün bunların fonunda Ermənistan rəhbərliyi son günlər bir sıra qeyri-dost addımlar atıb, o cümlədən Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun ratifikasiya prosesinə başlanılıb, baş nazirin həyat yoldaşı Anna Akopyanın humanitar yardımın çatdırılması üçün Kiyevə səfəri gerçəkləşib, ABŞ-ın iştirakı ilə Ermənistan ərazisində hərbi təlimlər keçirilir. Bütün bunlarla bağlı Ermənistanın Moskvadakı səfiri Vaqarşak Arutyunyan Rusiya Xarici İşlər Nazirliyinə çağırılıb və ona sərt nota təqdim olunub".

***

Göründüyü kimi, Vaşinqton Bakı ilə İrəvan arasındakı danışıqlarda təşəbbüsü ələ aldığı kimi Ermənistanda hərbi varlığını da artırır. Bu kontekstdə ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononun Ermənistana səfəri diqqəti cəlb edir. Yayılan məlumata görə, o, sentyabrın 14-də bu ölkənin təhlükəsizlik şurasının katibi Armen Qriqoryanla görüşüb.

Qriqoryan və Bono Qarabağ ətrafındakı durumu, humanitar vəziyyəti, eləcə də Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması ilə bağlı məsələləri müzakirə ediblər.

Onu da qeyd edək ki, Bononun bölgəyə səfəri əvvəlcədən elan olunmayıb. Hətta onun sentyabrın 15-də Senatın Xarici əlaqələr komitəsində keçirilən dinləmələrdə iştirakı planlaşdırılmışdı. Ancaq o, dinləmələrdə iştirak etməyərək, həmin gün İrəvanda peyda olmuşdu. "Turan" agentliyi bildirir ki, böyük ehtimalla Vaşinqton Bakı və İrəvan nümayəndələrinin ABŞ-da növbəti görüşünə hazırlaşır. Dövlət Departamentinin nümayəndələri agentliyin Vaşinqton müxbiri ilə söhbətdə belə bir görüşün keçiriləcəyini bəyan ediblər.

ABŞ-ın Azərbaycandakı səfirliyindən Qafqaz danışıqları üzrə baş müşavirin İrəvanla yanaşı, Bakıya da gələcəyi bildirilib. Qeyd olunub ki, Bono davamlı və ləyaqətli sülhə nail olmaq üçün tərəflərə ABŞ-ın dəstəyini müzakirə edəcək.

ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller isə keçirdiyi brifinq zamanı Bononun səfəri ilə bağlı konkret heç nə deyə bilməyəcəyini vurğulayıb: "Biz həm qısamüddətli prioritet olan Laçın yolunun açılmasına (?), həm də əlbəttə ki, uzunmüddətli prioritetimizə sadiq qalmaqda davam edirik. Uzunmüddətli prioritet bütün məsələnin sülh yolu ilə həllinə nail olmaqdır", – deyə Metyu Miller qeyd edib.

Onu da deyək ki, Vaşinqton Xankəndidəki qondarma separatçı rejimin sentyabrın 9-da keçirdiyi "seçkiləri" qanunsuz hesab edib. Metyu Miller Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində erməni separatçıların keçirdiyi "seçkilər"i tanımadığını açıqlayıb. ABŞ-ın Ermənistanda təsir gücünün artdığı bir vaxtda, Vaşinqtonun İrəvana Azərbaycanla sülhə gəlmək üçün təsir göstərməsinə ehtiyac duyulur. Çünki Cənubi Qafqazda sülh regionun çiçəklənməsinə xidmət etməklə yanaşı, ABŞ-ın da maraqlarına uyğundur. Bunun əvəzində ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifələrini icra edən Yuri Kimin Senatda keçirilən dinləmələrdə dilə gətirdiyi, bölgədə mövcud vəziyyətə və reallıqlara uyğun gəlməyən mövqeyi təəssüf doğurur.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru**

– Sentyabrın 14-də ABŞ Senatının Xarici əlaqələr komitəsində keçirilən dinləmələrdə ermənipərəst senatorların təxribatçı çıxışları, əlbəttə, gözlənilən idi. Lakin Dövlət Departamenti rəsmisinin bu cür çıxış etməsi, sözün doğrusu, bizi təəccübləndirdi. Həm də çox pis mənada. Çünki Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kim tam olaraq erməni mövqeyindən çıxış etdi. Elə bil Robert Menendezdən daha çox ermənipərəst olmağa çalışırdı.

Digər tərəfdən, Dövlət Departamentinin rəsmisi ABŞ-ın mövqeyindəki qeyri-müəyyənlikləri, demək olar ki, tamamilə aradan qaldırdı və Vaşinqtonun mövqeyi şəxsən mənə tam aydın oldu. Bununla bağlı, demək olar ki, ABŞ-ın bu cür yanaşması Azərbaycan üçün bir təhdiddir. Onun danışıqlarda vasitəçi kimi çıxış etməsi, deyərdim ki, artıq sual altındadır. Çünki bu yanaşma birbaşa olaraq Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlikdir və Qarabağın ölkəmizdən qoparılmasına xidmət edir. Əlbəttə, bu, qəbuledilməzdir. Əgər biz Dövlət Departamentinin nümayəndəsinin yanaşmasını ümumi xarakterizə etsək, deməliyik ki, bu, ədalətsizlik və hətta vicdansızlıqdır. Bu mənada düşünürəm ki, ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononun regiona səfəri səmərəli olmayacaq. Azərbaycan ABŞ-ın təşəbbüslərinə və ümumiyyətlə, onun vasitəçiliyinə yenidən baxmalıdır.

# "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq"

## Bakıda keçirilən beynəlxalq konfransda bu məsələlər müzakirə edilib

**Hesablama və Auditorlar palatalarının birgə təşkilatçılığı ilə dünən ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Tədbirin reallaşmasında əsas məqsəd dayanıqlı inkişaf modelinə keçid şəraitində hesabatlılıq anlayışına yeni yanaşma, maliyyə göstəriciləri ilə bərabər, qeyri-maliyyə, ekoloji, sosial və digər amilləri özündə ehtiva edən hesabatlılıq, həmçinin nəzarət sisteminin qurulması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə fikir mübadiləsi aparmaq, habelə tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.**



Konfransda a Avropa Mühasiblər və Auditorlar Federasiyası, İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası kimi nüfuzlu beynəlxalq qurumları və 11 ölkəni – Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Gürcüstan, Latviya, Litva, Makedoniya, İtaliya, Hindistan və Fransanı təmsil edən 150-dən çox nümayəndə iştirak edib. Beynəlxalq elmi-praktik konfransda Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Tədbir çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması istiqamətində təcrübələr nəzərdən keçirilib, bu sahədə beynəlxalq əlaqələrin genişləndirilməsi zərurəti və onun reallaşdırılması şərh olunub, "yaşıl iqtisadiyyat", sosial məsuliyyət və ekoloji tarazlığın təmin edilməsi sahəsində müzakirələr aparılıb.

Auditorlar Palatasının sədri Vahid Novruzov konfransdakı çıxışında mövcud hesablamalara əsaslanaraq bildirib ki, DİM-ə nail olmaq üçün dünyada ÜDM-in 1,5-4 faizi qədər resurs tələb edilir. Məhz biznes strukturlarının dayanıqlı inkişaf sahəsində dövlət təşəbbüslərinə cəlb olunmasının vacibliyi də məhz bununla əlaqələndirilir. O qeyd edib ki, DİM-də informasiya əlçatanlığı, məlumatların toplanılması, monitorinqi və hesabatlılığı dayanıqlı inkişaf üçün ən mühüm elementlər kimi dəyərləndirilir.

Ümumiyyətlə, beynəlxalq qurumların məlumatına görə, 17 DİM-in 8-i mühasibat uçotu, hesabatlılıq və o cümlədən auditlə birbaşa əlaqədardır. Başqa sözlə, mühasiblər və auditorlar DİM-nin reallaşmasında mühüm rola malikdir. Bununla yanaşı, mühasibat uçotunun və auditin də korporativ dayanıqlı inkişafın yeni tələblərinə uyğun olaraq transformasiyası bu günün tələbləri sırasındadır. Məhz mühasibat uçotu və auditin birbaşa təsiri ilə dayanıqlı inkişafın təhsilin keyfiyyəti, gender bərabərliyi, ləyaqətli əmək və iqtisadi artım, məsuliyyətli istehlak və istehsal, bərabərsizliyin azaldılması, təhlükəsizlik, iqlim dəyişikliyi, ekosistemin qorunması, güclü institutların yaradılması və əməkdaşlıq kimi Dayanıqlı İnkişaf Məqsədləri reallaşa bilər.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxışında dövlət orqanları və müəssisələr qarşısında şəffaflıq, hesabatlılıq və dürüstlük kimi prinsiplərə dönmədən əməl olunmasının zəruriliyi haqqında söhbət açıb. Palata sədri daha sonra təmsil etdiyi qurumun fəaliyyəti haqqında məlumat verərək cari ilin 8 ayında həyata keçirilən nəzarət tədbirləri nəticəsində artıq xərclənmənin, eləcə də büdcəyə hesablanmamış ödənişlərin məbləğinin 91,6 milyon manat təşkil etdiyini diqqətə çatdırıb. O, həmin məbləğin 39,6 milyon manatının dövlət büdcəsinə bərpası ilə bağlı qərar qəbul edildiyini, cinayət əməlinin olduğu ehtimal edilən 9 material üzrə isə 28,5 milyon manatdan yuxarı rəqəmlə bağlı məlumatların hüquq-mühafizə orqanlarına göndərildiyini xatırladıb.

Bu gün isə iştirakçıların Heydər Əliyev Mərkəzinə ziyarəti, xarici ölkələrin audit və mühasibat qurumlarının nümayəndələri ilə auditin normativ-hüquqi bazasına, metodiki təminatına, təşkili və tənzimlənməsinə dair təcrübə mübadiləsi və Bakı şəhəri ilə tanışlıq nəzərdə tutulub.

**XQ**

# MDB dövlətləri baş prokurorlarının Əlaqələndirmə Şurasının Bakı görüşü

**Bakıda Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü iclası keçirilib.**



İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Rusiyanın baş prokurorları, MDB Baş Prokurorların Əlaqələndirmə Şurasının icraçı katibi, eləcə də MDB Katibliyi və MDB-nin Antiterror Mərkəzinin məsul şəxsləri iştirak edirlər.

Azərbaycanın Baş prokuroru Kamran Əliyev dövlətimizin başçısı İlham Əliyevin iclas iştirakçılarına müraciətini səsləndirib.

İclasda Belarusun Baş prokuroru Andrey İsveç, Qazaxıstanın Baş prokuroru Berik Asılov, Qırğızıstanın Baş prokuroru Zuluşev Toktoralyeviç, Rusiyanın Baş prokuroru İqor Krasnov , Tacikistanın Baş prokuroru Yusuf Raxmon, Özbəkistanın Baş prokuroru Niqmatilla Yuldaşev müxtəlif mövzusunda fikirləri ni bildirib. Baş prokuror Kamran Əliyev "Beynəlxalq hüquqi əməkdaşlıq – Azərbaycan Respublikası prokurorluğunun fəaliyyətinin mühüm istiqamətlərindən biri kimi" mövzusunda çıxış edib.

Daha sonra MDB-yə üzv dövlətləri arasında əməkdaşlığın genişləndirilməsində müstəsna xidmətlərinə görə Azərbaycanın Baş Prokuroru Kamran Əliyevə "MDB ölkələrinin fəxri prokuroru" döş nişanı və təşkilat çərçivəsində fəaliyyəti qiymətləndirilən digər şəxslərə müvafiq mükafatlar təqdim edilib.

Tədbirdə Əlaqələndirmə Şurasının 33-cü iclasının gündəliyində duran aktual məsələlər, o cümlədən növbəti iclasın keçirilmə yeri və vaxtı, habelə digər təşkilati məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilərək iştirakçılar tərəfindən imzalanıb.

**XQ**

# İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının 4-cü iclası



**Dünən Heydər Əliyev Mərkəzində 1992-ci ildən ölkəmizin üzv olmaqla səmərəli əməkdaşlıq, həmçinin 2023-cü ildən sədrlik etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının 4-cü iclası keçirilib.**

İclasda İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini, Türkiyə, Özbəkistan, İran, Qazaxıstan, Qırğız, Tacikistan baş prokurorları, Türkiyənin ədliyyə naziri və Türkmənistanın Baş prokurorunun müavininin rəhbərlik etdikləri nümayəndə heyətləri iştirak ediblər.

Kamran Əliyev təşkilatın 4-cü iclasının Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə təsadüf etməsini tarixi hadisə adlandırıb, Ulu öndərin bu qurumla əlaqələrə daim önəm verdiyini, bu gün ölkəmizlə təşkilat arasındakı qarşılıqlı əlaqələrin yüksək səviyyədə inkişaf etməsinin məhz dahi şəxsiyyətin uzaqgörən siyasətinin nəticəsi olduğunu vurğulayıb. Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquqi islahatları barədə iştirakçıları məlumatlandırıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini Jandos Asanov bildirib ki, Azərbaycan regional və beynəlxalq iqtisadi təşəbbüsləri hər zaman dəstəkləyən və bu işlərə böyük töhfələr verən bir dövlətdir.

Bundan sonra nümayəndə heyətləri müxtəlif aktual mövzularda təcrübə mübadiləsi aparıblar.

Tədbirdə təşkilatı məsələlərə baxılaraq, iclasın yekunlarına dair protokol və bəyannamə qəbul edilib.

**XQ**

# Hərbi Prokurorluğun Ulu öndərlə bağlı tədbiri

**Hərbi Prokurorluğun Ulu öndərin 100 illik yubileyi münasibətilə keçirdiyi silsilə tədbirlər davam etdirilir.**



Müdafiə Nazirliyi ilə birgə N saylı hərbi hissədə keçirilən tədbirdə baş ədliyyə müşaviri Firad Əliyev və ədliyyə müşaviri Samir Əzimzadə Ümummilli liderin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Sonda Şəmistan Əlizamanlı vətənpərvər mahnılar oxuyub.

**XQ**

# Milli Məclisin sədri Kubada



**Milli Məclisin sədri Sahibə Qafarova sentyabrın 15-də G77 və Çin Qrupunun Zirvə görüşündə iştirak etmək üçün Kuba Respublikasının Havana şəhərinə işgüzar səfərə gedib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən XQ-yə bildirilib ki, səfər çərçivəsində Sahibə Qafarovanın G77 və Çin Qrupunun Zirvə görüşündə çıxışı nəzərdə tutulub.

**XQ**

# YAP nümayəndələri Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər



**Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 105-ci ildönümü münasibətilə sentyabrın 15-də Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər xiyabanını ziyarət ediblər.**

Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər qoyulub.

Sonra YAP nümayəndələri Bakıdakı "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən, Azərbaycan–Türkiyə qardaşlığının əbədiliyini, sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman və fədakar türk qardaşlarımızın əziz xatirəsi anılıb, abidənin önünə gül dəstələri düzülüb.

**XQ**

# Qəhrəmanlıq tarixinə ehtiram



**Sentyabrın 15-də Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Bakı şəhərinin azad edilməsinin 105 illiyi ilə əlaqədar olaraq "Türk Şəhidliyi" abidəsini ziyarət edib.**

Bu barədə XQ-yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Abidə qarşısına Müdafiə Nazirliyi adından qızılgül çələngi qoyulub, qərənfillər düzülüb və şəhidlərin xatirəsi ehtiramla yad edilib.

# Azərbaycan və Ermənistan ekspertləri Tbilisidə görüşüblər

**Sentyabrın 15-də Gürcüstanın paytaxtı Tbilisidə Azərbaycan və Ermənistandan olan ekspert heyətləri arasında görüş keçirilib.**

Heyətlərə Azərbaycan tərəfdən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev, Ermənistan tərəfdən isə Qafqaz Araşdırmaları İnstitutunun direktoru Aleksandr İskəndəryan rəhbərlik edib.

Tərəflər iki ölkə arasındakı məsələləri müzakirə ediblər.

**XQ**

# İcma: ABŞ Ermənistanın yalanlarına uymamalıdır

**ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin vəzifələrini icra edən Yuri Kim erməni lobbisi ilə korrupsiya əlaqələrinə görə - hazırda ABŞ Federal Təhqiqatlar Bürosunun istintaqı altında olan senator Bob Menendezin 2023-cü il sentyabrın 14-də ABŞ Senatında təşkil etdiyi dinləmələrdə anti-Azərbaycan bəyanat verib.**

XQ xəbər verir ki, Qərbi Azərbaycan İcması bununla bağlı bəyanat yayıb.

Bəyanatda qeyd olunub: "ABŞ hökuməti Ermənistanın yalanlarına uymamalı, insan hüquqlarının müdafiəsi məsələsində etnik ayrı-seçkiliyə yol verməməli, Azərbaycanın daxili işlərinə müdaxilə etməməli və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına dəstək verməlidir".

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 321** **Bakı şəhəri, 13 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 652-VIQD nömrəli Qanununun tətbiqi və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 1989 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1176; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 8 iyul tarixli 224 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 12.3.5-ci yarımbənddə "şəxslər haqqında arayış" sözləri "şəxslərin soyadı, adı və ata adı haqqında elektron sənəd" sözləri ilə əvəz edilsin.

**2.** 12.3.6-cı yarımbəndə "arayışlar" sözündən sonra "(məlumatlar)" sözü əlavə edilsin.

**3.** 12.3.7-ci yarımbənddə "mülkiyyət hüquqlarının" sözləri "hüquqların" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 322** **Bakı şəhəri, 13 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 629-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 noyabr tarixli 1893 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 227; 2011, № 5, maddə 449; 2018, № 11, maddə 2448; 2021, № 10, maddə 1193) ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** I hissə üzrə:

1.1. 1.3-cü bənddə "onun müddəalarına uyğun müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş," sözləri "qanunvericiliyə uyğun qəbul edilmiş digər" sözləri ilə əvəz edilsin;

1.2. 1.4-cü bəndin səkkizinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amilləri olan iş yerlərinin müəyyən edilərək onların həmin iş yerlərinə buraxılmaması və digər yüngül işlərdə çalışmasının təmin edilməsi.".

**2.** Aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

"3.6. İş yerlərinin attestasiyasının nəticələrinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 may tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı"na uyğun olaraq hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan edilən iş yeri müəyyən edildikdə "Əmək şəraiti üzrə iş yerinin attestasiyası xəritəsi"nin "Əmək şəraitinə görə güzəştlər" hissəsində bu iş yerlərində hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqinin qadağan edilməsi və yüngül işə keçirilməsi barədə müvafiq qeyd aparılır.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 323** **Bakı şəhəri, 13 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında" 2006-cı il 15 sentyabr tarixli 211 nömrəli, "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli, "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2012-ci il 30 dekabr tarixli 330 nömrəli, "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 5 noyabr tarixli 320 nömrəli, "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2014-cü il 30 may tarixli 171 nömrəli və "Yaşıllıqların mühafizəsinə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 27 dekabr tarixli 526 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 812-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 15 sentyabr tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 825; 2010, № 10, maddə 909) ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Giriş" hissəsinin on birinci abzasında "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin;

1.2. "Ana və uşaqların qorunması üzrə Tədbirlər Proqramının həyata keçirilməsi planı"nın 20-ci sətrinin "Tədbirlərin adı" sütununda "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1000; 2017, № 4, maddə 613, № 12 (II kitab), maddə 2515; 2018, № 5, maddə 1148, № 11, maddə 2430; 2019, № 8, maddə 1472; 2020, № 8, maddə 1121, № 11, maddə 1410; 2022, № 4, maddə 404, № 9, maddə 1099, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 6.17-ci bəndinin ikinci cümləsində "kütləvi informasiya vasitələrinin" sözləri "media" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 30 dekabr tarixli 330 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1392; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7.1-ci bənddə "kütləvi informasiya vasitələrində, ərazi üzrə yerli kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

3.2. 7.5-ci bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457; 2015, № 12, maddə 1584; 2016, № 11, maddə 1976; 2019, № 3, maddə 514, № 7, maddə 1318; 2020, № 11, maddə 1410; 2021, № 3, maddə 273, № 10, maddə 1163; 2022, № 7, maddə 819, № 9, maddə 1100, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın 3.1.8-ci yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media məhsulları" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 595, № 12, maddə 1654; 2017, № 4, maddə 615) ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.8-ci, 2.18-ci, 2.19-cu, 2.21-ci və 2.22-ci bəndlərində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 dekabr tarixli 526 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2242; 2019, № 11, maddə 1861) ilə təsdiq edilmiş "Yaşıllıqların mühafizəsinə nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.3.6-cı yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 327** **Bakı şəhəri, 14 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi qaydasının, qrant məbləğinin müəyyən edilməsi meyarlarının və hər bir mövzu üzrə qrant məbləğinin yuxarı həddinin təsdiq edilməsi haqqında***

"Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanının 7.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı təqdim etdikləri layihələrin qrant məbləğinin müəyyən edilməsinə dair meyarlar və hər bir mövzu üzrə qrant məbləğinin yuxarı həddi" təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki, bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 1.3-cü bəndində nəzərdə tutulan informasiya ehtiyatı fəaliyyətə başlayanadək həmin informasiya ehtiyatı vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən həyata keçirilir.

**4.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 324** **Bakı şəhəri, 13 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi Qaydaları"nın və "Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuraları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2003-cü il 2 iyun tarixli 75 nömrəli, "Ekoloji təhsil və maarifləndirilməsi üzrə Sahələrarası Komissiya yaradılması və Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2003-cü il 22 sentyabr tarixli 120 nömrəli, "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2005-ci il 30 dekabr tarixli 247 nömrəli, "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 26 noyabr tarixli 277 nömrəli, "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2016-cı il 8 iyun tarixli 218 nömrəli, "Dövlət satınalmalarına cəlb olunan vəzifəli şəxslərin Davranış Kodeksi"nin təsdiq edilməsi haqqında" 2019-cu il 19 mart tarixli 118 nömrəli və "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalında barəsində məlumatlar yerləşdirilən istehsalçıların, eləcə də satıcıların fəaliyyətinin monitorinqinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2022-ci il 14 oktyabr tarixli 393 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yerli rəy sorğusu haqqında", "Avtomobil yolları haqqında", "Diplomatik xidmət haqqında", "Dövlət satınalmaları haqqında", "Gənclər siyasəti haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Tənzimlənən qiymətlər haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 818-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 2 iyun tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 344; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi Qaydaları"nın 4.1-ci və 4.2-ci bəndlərində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 22 sentyabr tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 528; 2006, № 7, maddə 647; 2014, № 1, maddə 69, № 6, maddə 736; 2016, № 5, maddə 955; 2019, № 3, maddə 529; 2021, № 9, maddə 1085) ilə təsdiq edilmiş "Ekoloji təhsil və maarifləndirmə üzrə Sahələrarası Komissiya haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.10-cu yarımbənddə "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin;

2.2. 4.2-ci bənddə "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1246; 2014, № 7, maddə 933, № 12, maddə 1679) ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"nın 2.10.8-ci yarımbəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1214) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə"nin 1.1-ci bəndində və 2.1.8-ci yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "media məhsullarında" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 8 iyun tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1196; 2019, № 7, maddə 1324; 2020, № 2, maddə 211) ilə təsdiq edilmiş "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nın 2.9-cu bəndinin ikinci cümləsində "kütləvi, o cümlədən" sözləri "mediada, habelə" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 19 mart tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 552) ilə təsdiq edilmiş "Dövlət satınalmalarına cəlb olunan vəzifəli şəxslərin Davranış Kodeksi"nin 8.4.2-ci yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 oktyabr tarixli 393 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1219) ilə təsdiq edilmiş "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalında barəsində məlumatlar yerləşdirilən istehsalçıların, eləcə də satıcıların fəaliyyətinin monitorinqinin aparılması Qaydaları"nın 4.6.3-cü yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 325** **Bakı şəhəri, 13 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə" 1999-cu il 15 mart tarixli 40 nömrəli, "Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə Qaydaları haqqında Əsasnamənin, Arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli arxiv fondunun tərkibinə daxil edilməsi, bu tərkibdən çıxarılması və ya məhv edilməsi Qaydasının, Qeyri-dövlət arxiv fondlarının mühafizəsi üzrə Qaydaların, Aşkar edilmiş və ya tapılmış arxiv sənədlərini aşkar edən və ya tapan şəxsləri mükafatlandırma Qaydasının və Beynəlxalq əməkdaşlıq məqsədi ilə sənədlərin və kolleksiyaların xaricə müvəqqəti aparılması Qaydasının təsdiq edilməsi haqqında" 2000-ci il 6 mart tarixli 32 nömrəli, "Meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 1 may tarixli 78 nömrəli, "Su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında balıq və digər su bioresurslarının xüsusi mühafizə rejiminin tətbiq edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2017-ci il 12 may tarixli 205 nömrəli, "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın təsdiq edilməsi barədə" 2018-ci il 4 dekabr tarixli 522 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Torpaq bazarı haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Milli arxiv fondu haqqında", "Bələdiyyələrin statusu haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Su təchizatı və tullantı suları haqqında" və "Taxıl haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 816-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196; 2001, № 10, maddə 663; 2003, № 6, maddə 342; 2005, № 4, maddə 386; 2006, № 5, maddə 463, № 9, maddə 822; 2008, № 2, maddə 125, № 8, maddə 782; 2011, № 5, maddə 455; 2012, № 5, maddə 487, № 7, maddə 776, № 9, maddə 921; 2013, № 5, maddə 575, № 8, maddə 1021, № 11, maddə 1462; 2015, № 4, maddələr 463, 467; 2016, № 2 (II kitab), maddə 386, № 4, maddə 810; 2017, № 4, maddələr 620, 645; 2018, № 5, maddə 1119, № 10, maddələr 2166, 2175, № 11, maddə 2442; 2021, № 7, maddə 881; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 may tarixli 156 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"nin 2.2-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 32 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 221; 2003, № 6, maddə 342; 2004, № 4, maddə 287; 2005, № 1, maddə 49, № 2, maddə 122; 2006, № 2, maddə 185, № 10, maddə 903; 2010, № 3, maddə 263, № 12, maddə 1123; 2015, № 10, maddə 1223; 2016, № 9, maddə 1585; 2018, № 9, maddə 1949, № 12 (II kitab), maddə 2732; 2023, № 2, maddə 310) ilə təsdiq edilmiş "Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə Qaydaları haqqında Əsasnamə"nin 4.5-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 359; 2005, № 1, maddə 49, № 9, maddə 855; 2008, № 2, maddə 108; 2015, № 1, maddə 67; 2016, № 12, maddə 2225; 2018, № 4, maddə 801; 2019, № 12, maddə 2082; 2021, № 5, maddə 520) ilə təsdiq edilmiş "Meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası Qaydaları"nın 2.2-ci bəndinin üçüncü abzasında "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 205 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 976) ilə təsdiq edilmiş "Su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında balıq və digər su bioresurslarının xüsusi mühafizə rejiminin tətbiq edilməsi Qaydaları"nın 2.13-cü bəndinin birinci cümləsində "kütləvi informasiya vasitələri vasitəsilə" sözləri "media ilə" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2725; 2020, № 11, maddə 1408; 2022, № 4, maddə 380, № 11, maddə 1347, № 12, maddə 1534) ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın 16.1-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan–Mərkəzi Asiya dövlətləri: Ortaq dəyərlərdən ümumi hədəflərə

## Bu ölkələrlə iqtisadi əlaqələr 3 dəfədən çox genişlənib

**Prezident İlham Əliyev Tacikistanın paytaxtı Düşənbədə sentyabrın 14-də keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə çıxış edərək Mərkəzi Asiya və Azərbaycanın iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik vahid tarixi-mədəni coğrafi region olduğunu bildirib. Dövlətimizin başçısı, eyni zamanda Mərkəzi Asiya ölkələri ilə ikitərəfli əməkdaşlığın mühüm meyarlarından birini qarşılıqlı ticarət və sərmayələrin artımı təşkil etdiyini diqqətə çatdırıb.**




Sevindirici haldır ki, ölkə rəhbərinin nitqində vurğuladığı istiqamətlər üzrə rəqəmlər davamlı artımın göstəricisidir. Məsələn, ötən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ümumi ticarət dövriyyəsi 3 dəfədən çox, cari ilin 7 ayı ərzində isə daha 50 faiz artıb. İnvestisiya qoyuluşuna gəldikdə isə deyə bilərik ki, bu sahə daim diqqətdə saxlanılıb, birgə sərmayə fondları yaradılıb, qarşıdakı 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı investisiyaların həcmi razılaşdırılıb.

Azərbaycan hazırda Mərkəzi Asiya ölkələri ilə sənaye, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələr həyata keçirir. Mehmanxana işi və turizm sahəsindəki sərmayə layihələri də icra mərhələsindədir. Mərkəzi Asiyadan olan şirkətlərin Azərbaycanda fəaliyyət göstərən Ələt Azad İqtisadi Zonasına indiki marağı da ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə böyük inam yaradır.

Qeyd edək ki, 2017-ci ildə Ələt Azad İqtisadi Zonasının yaradılması barədə qərar və bundan bir il sonra müvafiq qanun qəbul edilməsi ilə bu sahədə real addımların atılmasına başlanılıb. 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin iştirakı ilə sözügedən iqtisadi məkanın təməli qoyulub. Cari il iyunun 9-da isə adıçəkilən iqtisadi zonanın birinci mərhələsi istifadəyə verilib. Azərbaycanın iqtisadi həyatı üçün son dərəcə əlamətdar hadisə sayılan bu tədbirdə dövlətimizin başçısının iştirakı isə Azərbaycanı beynəlxalq səviyyədə rəqabətədavamlı və dayanıqlı, şaxələndirilmiş və ixracyönümlü iqtisadiyyata malik bir ölkə kimi inkişaf etdirməyə yönələn siyasətinin real təməli kimi dəyərləndirilib.

Prezident İlham Əliyevin "Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 25 avqust 2022-ci il tarixli sərəncamında adıçəkilən iqtisadi zonanın ərazisi qismində müəyyənləşdirilən torpaq sahəsinin dövlət mülkiyyətinə aid 60 hektar təşkil edən hissəsinin birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə səlahiyyətli quruma verilməsi öz ifadəsini tapıb.

Ələt Azad İqtisadi Zonası daha çox nəqliyyat, logistika sahəsinin formalaşmasına xidmət edir. İnvestisiyaların cəlb olunması burada əsas hədəf olaraq nəzərdə tutulur. Belə bir iqtisadi zonanın yaradılması isə Azərbaycanın tranzit ölkə olaraq öz imkanlarını genişləndirməyə şərait yaradır və ölkə ərazisinə daha çox yükdaşımaların artırılmasını şərtləndirir.

İqtisadi zona dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin, habelə investisiyaların artmasına, ehtiyatda olan məhsulların bir qisminin daxili bazara çıxarılmasına, idxaldan asılılığın aradan qaldırılmasına, bir sözlə, Azərbaycan iqtisadiyyatının inkişafına da müsbət təsir göstərir.

Bu gün əcnəbi hüquqi və fiziki şəxslərin iqtisadi zonada mülkiyyət sahibi olmasına heç bir məhdudiyyət qoyulmur, burada investorların əmlakı heç bir halda milliləşdirilmir, investorların əmlakının bu və ya digər məhdudiyyətlərdən tam qorunmasına təminat verilir.

Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsi olduğu üçün nəqliyyat və logistika sahəsi də ikitərəfli münasibətlərdə xüsusi yer tutur. Başqa sözlə, respublikamızın genişmiqyaslı nəqliyyat–logistika infrastrukturu Mərkəzi Asiyanın iqtisadi inkişafının sürətlənməsində önəmli rol oynayır.

Hazırda Şərq-Qərb marşrutu ilə yükdaşımalara artan tələbatı təmin etmək məqsədilə Azərbaycan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolunun müasirləşdirilməsi istiqamətində mühüm layihələr həyata keçirir. Reallaşdırılan tədbirlərin nəticəsidir ki, 2024-cü ildə BTQ yolu ilə daşınan yüklərin həcminin 1 milyon tondan 5 milyon tona qədər artacağı proqnozlaşdırılır. Buna paralel olaraq, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır.

Respublikamız Xəzərdə 50-dən artıq gəmidən ibarət ən iri ticarət donanmasına malikdir. Mərkəzi Asiya ölkələrindən yük göndərənlərin artan tələbatını nəzərə alaraq, Azərbaycan gəmiqayırma zavodunun imkanlarının genişləndirilməsi üzərində fəal iş aparır. Yeni investisiya layihələri yekunlaşdıqdan sonra istehsal olunan tanker və quru yükdaşıyan gəmilərin sayının 6-dan15 gəmiyə qədər artacağı gözlənilir.

Yeri gəlmişkən, Bakı Gəmiqayırma zavodu yeni gəmilərin və iri tonnajlı tankerlərin tikintisi və təmiri üzrə Xəzər dənizi hövzəsində ən müasir müəssisədir. Artıq burada bir sıra gəmilər, o cümlədən "Xankəndi" sualtı tikinti gəmisi inşa edilərək istifadəyə verilib. Dünyada yalnız 10 ədəd olan və mürəkkəb mühəndislik həlləri tələb edən "Xankəndi" gəmisinin tikintisinin Azərbaycanda reallaşdırılması ölkəmizin bu sahədə mühüm uğurudur.

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında daha böyük həcmdə tranzit yükləri cəlb etmək üçün tariflərin optimallaşdırılması, tənzimləyici və gömrük prosedurlarının sadələşdirilməsi və bu sahədə ahəngdarlığın təmin edilməsi kimi məsələlərin həlli hazırda qarşıda mühüm vəzifələr kimi durur. Bundan savayı, tranzit daşımaların şəffaflığının və daşımalar prosesinin iştirakçıları üçün bərabər şərtlərin gerçəkləşməsində mühüm meyarlardan biri də Şərq-Qərb nəqliyyat dəhlizinin rəqəmsallaşdırılması, fiber-optik infrastrukturun yaradılmasına yönələn və bununla əlaqədar önəmli tədbirlər reallaşdırılan "Rəqəmsal İpək Yolu" layihəsidir.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Aqil ƏSƏDOV,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru**

Son illər Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən türk dövlətləri ilə münasibətlərində böyük canlanma müşahidə olunur. İstər regionda, istərsə də dünyada baş verən geosiyasi proseslər ölkələri birgə əməkdaşlığa səsləyir. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi tədbirlər bunun bariz nümunəsidir. Prezident İlham Əliyevin Mərkəzi Asiya, o cümlədən regionun türk dövlətlərinə mütəmadi səfərləri və eləcə də həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri Türk dünyası üzvləri ilə əlaqələrin genişlənməsini və strateji xarakter almasını şərtləndirir.

Azərbaycanın türk dövlətləri ilə genişlənən əlaqələri Türkiyə ilə imzaladığı Şuşa Bəyannaməsi, Qırğızıstanla imzaladığı "Strateji Tərəfdaşlıq haqqında Bəyannamə", Özbəkistanla imzaladığı "Strateji tərəfdaşlığın dərinləşməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi barədə Bəyannamə", "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında hərtərəfli strateji tərəfdaşlığın dərinləşdirilməsinə dair 2023–2024-cü illər üzrə Yol Xəritəsi" və Qazaxıstanla imzaladığı "Strateji münasibətlərin möhkəmlənməsi və müttəfiqlik qarşılıqlı əlaqələrinin dərinləşməsi haqqında Bəyannamə"də öz əksini tapır.

Yeni investisiya layihələrinin reallaşdırılması və iş yerlərinin yaradılması məqsədilə 500 milyon ABŞ dolları nizamnamə kapitalına malik "Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında Saziş" təsdiq edilib. İşğaldan azad edilmiş ərazilərimizin investisiya cəlbediciliyi imkanlarının yüksək olması bu kimi strateji addımların təsir dairəsini genişləndirir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə Füzuli rayonunda 960 şagird yerlik məktəbin tikintisi də sosial-iqtisadi və mədəni baxımdan dəyərləndirilə bilər.

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə ümumi ticarət dövriyyəsi 2022-ci ildə 2 milyard 984 milyon ABŞ dolları, o cümlədən ixrac 186,7 milyon ABŞ dolları, idxal isə 1 milyard 147 milyon ABŞ dolları həcmində olub. Həmçinin Qazaxıstanda 700-dən çox Azərbaycan kapitalı ilə fəaliyyət göstərən şirkət mövcuddur. O cümlədən Azərbaycanda Qazaxıstan kapitallı 200-dən çox şirkət fəaliyyət göstərir.

Mərkəzi Asiya və Azərbaycan xüsusilə enerji, nəqliyyat, kənd təsərrüfatı və turizm kimi sektorlarda iqtisadi inteqrasiya üçün əhəmiyyətli potensiala malikdir. Azərbaycanın Avropa və Asiya arasında tranzit dəhlizi kimi strateji mövqeyi Asiya ölkələrinin də ticarət yollarını diversifikasiya etmək və regional əlaqəni artırmaq səylərini tamamlayır. Azərbaycanın Zəngəzur dəhlizinin açılması kontekstində həyata keçirdiyi siyasət və strateji infrastruktur–quruculuq işləri Mərkəzi Asiya ölkələrinin Avropaya çıxışı üçün ən cəlbedici imkandır.



## "Yaşıl enerji məkanı" İşçi qrupunun iclası

**"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın 2023-cü il üçün nəzərdə tutulmuş hədəfləri çərçivəsində cari ilin birinci yarım ili üzrə monitorinq və qiymətləndirilməsinə dair "Yaşıl enerji məkanı" məqsədi üzrə ümumi hesabatın "Yaşıl enerji məkanı" İşçi qrupunda hibrid formatında müzakirəsi keçirilib.**

Energetika Nazirliyinin mətbuat xidmətinin məlumatına əsasən, qrupun sədri, energetika nazirinin müavini Elnur Soltanov "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "Təmiz ətraf mühit və "Yaşıl artım" ölkəsi" milli prioriteti üzrə nəzərdə tutulan tədbirlərdən bəhs edib, əsas hədəf indikatorlarından birinin elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının artırılması olduğunu vurğulayıb. "Yaşıl enerji məkanı" məqsədi ilə yanaşı, xüsusi olaraq işğaldan azad edilmiş ərazilərdə və Naxçıvanda "yaşıl enerji" zonasının yaradılması istiqamətində müvafiq tədbirlərin həyata keçirildiyini bildirib.

Daha sonra işçi qrupun sədr müavini, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn "Yaşıl enerji" məkanı üzrə tərəqqi hesabatını təqdim edib. O, bu sahədə davamlı inkişaf üçün yaxşı zəmin formalaşdırıldığını diqqətə çatdırıb.

İclasda "Yaşıl enerji məkanı" məqsədi üzrə fəaliyyət istiqamətləri və hədəflərlə bağlı görülən tədbirlər haqqında danışılıb, energetika sektorunda tənzimləyici mühitin təkmilləşdirilməsi, bərpaolunan enerji mənbələrindən istifadənin artırılması, bu sahəyə xarici investorların cəlbi, yeni generasiya güclərinin enerji sisteminə inteqrasiyası və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. İşçi qrupu üzvlərinin hesabatla bağlı rəyləri dinlənilib, təklif və tövsiyələr nəzərə alınmaqla hesabat layihəsinin təkmilləşdirilməsi məqsədəuyğun bilinib.

Qeyd edək ki, Nazirlər Kabinetinin 2023-cü il 12 iyun tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin vaxtında və səmərəli icrasını gerçəkləşdirmək və aidiyyəti dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə 8 işçi qrup yaradılıb.

***XQ***

# Neftimizin qiyməti yenidən 100 dolları keçdi

**Son aylar dünya bazarında neftin qiymətində sürətli artım müşahidə olunur. Hazırda Londonun ICE birjasında "Brent" markalı neftin noyabr fyuçerslərinin qiyməti ötən il noyabr ayının 16-dan bəri ilk dəfə olaraq 94 dollar/bareldən yuxarıdır.**

Sentyabrın 15-də Bakı vaxtı ilə saat 00:13-ə olan hərrac məlumatlarına əsasən, "Brent" markalı neftin qiyməti 2,05 faiz artaraq 1 barelə görə 94,08 dollar təşkil edib. 15 dəqiqə sonra isə birjalarda bu markalı neft cüzi dəyər itirərək 94,05 dollara satılıb. Bununla yanaşı, birjalarda oktyabr üçün WTI markalı neftin də fyuçersləri 1,87 faiz artaraq bir barel üçün 90,6 dollar təşkil edib.

Ekspertlər hesab edirlər ki, "qara qızıl"ın dünya bazarında bu səviyyədə dəyər qazanması, əsasən, hasilatın azaldılması ilə bağlıdır. Bundan əlavə, son aylar bazarda tələb-təklif prinsipinin birincinin xeyrinə artması da nefti bahalaşdıran başlıca amillərdəndir. Məlum olduğu kimi, OPEK + alyansı bir neçə il əvvəl hasilatın optimallaşdırılması ilə bağlı müəyyənləşdirdiyi kursu qətiyyətlə davam etdirir. Elə alyansın hasilatın azaldılması ilə bağlı təklifinə qoşulan neft ölkələri də bu siyasətə sadiqliyini nümayiş etdirməkdə israrlıdırlar. Ekspertlərin qənaətinə görə, hazırda Çin də daxil olmaqla bir sıra aparıcı ölkələrdə neftə tələbatın kəskin yüksəlməsi müşahidə olunur ki, bu da birjalara təsirsiz ötüşmür.

Sentyabrın birinci ongünlüyündə birjalarda kəskin bahalaşan "Azeri Light" markalı Azərbaycan nefti ötən həftəni (1 barelinin orta qiyməti 96,058 ABŞ dolları) 5,058 dollar və ya 5,56 faizlik artımla başa vurdu. Son günlər dünya birjalarında yüksək qiymət artımı nümayiş etdirən neftimiz bu həftəni isə ilin yeni rekordu ilə tamamlayır. Belə ki, sentyabrın 15-də dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 1,80 ABŞ dolları, yaxud 1,82 faiz artaraq 100,53 ABŞ dolları təşkil edib. Bu, 2023-cü ilin ötən 8 ay yarımlıq dövrü üçün ən yüksək qiymətdir.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb. 2022-ci ildə "Azeri Light" markalı neftin bir barelinin orta satış qiyməti 103,58 ABŞ dolları təşkil edib. Bu, 2021-ci ilin göstəricisi ilə müqayisədə 44,6 faizlik artım deməkdir.




Azərbaycanda neft, əsasən, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda hasil edilir. Müqavilədə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) payı 25 faizdir. Bundan əlavə, SOCAR-ın "Azneft" İstehsalat Birliyinin tabeliyində olan neft və qazçıxarma idarələri tərəfindən də quruda və dənizdə hasilat işləri həyata keçirilir.

Məlum olduğu kimi, Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 60 ABŞ dollarından hesablanıb. Bəs, neftin qiymətinin artması ölkədə sosialyönümlü layihələrin icrasına, eləcə də əməkhaqqı və pensiya ödənişlərinə necə təsir göstərəcək?

Milli Məclisin deputatı Vüqar Bayramov sosial şəbəkə hesabında qeyd edib ki, neftin bahalaşması dövlət büdcəsindən xərcləmələr üçün, xüsusən də, fiskal öhdəliklərin vaxtında və nəzərdə tutulan məbləğdə həyata keçirilməsi baxımından imkanlar yaradır. Onun sözlərinə görə, bu, həm işğaldan azad edilmiş ərazilərin bərpasının maliyyə baxımından təminatı üçün vacibdir, digər tərəfdən, dövlət büdcəsindən maliyyələşən layihələrin icrasına, o cümlədən, sosial proqramların maliyyələşməsinə müsbət təsir göstərir. Əmək haqqı və pensiyaların mütəmadi artırılmasının sosial siyasətin əsas prioritetlərindən olduğunu vurğulayan V. Bayramov bildirib ki, gələn ilin yanvar ayında bütün növ əmək pensiyaları indeksasiya edilərək artırılacaq. Onun fikrincə, ölkənin fiskal gəlirlərinin artması sosial təminatın güclənməsi üçün də yeni imkanlar yaradır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Bazar iştirakçılarının Azərbaycan neftinin 1 barelinin 100 dollar həddindən baha satılması ilə bağlı verdikləri məlumat bu gün dünya bazarında hər hansı bir markadan olan neftin bu qiymətə satılması anlamına gəlməməlidir. Məlum olduğu kimi, hazırda London birjasında "Brent" markalı neftin bareli 94 dollardan bir qədər baha qiymətə satılır. Azərbaycan neftinin hər hansı bir alıcıya 100 dollardan baha satılması isə "Brent" markalı neftlə müqayisədə yaranmış mövcud xərclərlə bağlıdır. Bura neftin daşınması, tankerə yüklənməsi, hər hansı bir məntəqədə alıcıya təhvil verilməsinə çəkilən xərclər, o cümlədən də çatdırılma müddətində xam neftin hər hansı bir fors-major hallarla bağlı sığorta xərcləri daxildir. Yəni reallıqda bu, alıcıya onun göstərdiyi nöqtədə, terminalda təhvilvermə qiymətidir.

Düşünürəm ki, indiki halda birjalarda baş verən belə halları bu şəkildə ajiotaj səviyyəsinə çatdırmağa ehtiyac yoxdur. Digər tərəfdən, yaxşı olardı ki, Dövlət Neft Şirkəti Azərbaycan neftinin real qiymətini göstərəydi. Eyni zamanda Dövlət Neft Fondu heç olmasa, rübdə bir dəfə fonda daxil olan gəlirin mənfəət nefti satılandan sonra bütün xərcləri çıxmaqla olan real göstəriciləri təqdim etsin. Təəssüf ki, bunu ən yaxşı halda ildə bir dəfə özlərinin audit olunmuş hesabatlarında göstərməklə kifayətlənirlər.

Əgər real qiymətlər qeyd etdiyim şəkildə göstərilsə, Azərbaycan neftinin digər markalı neftlərdən heç də baha satılmaması aydın olar. Hətta bəzi hallarda onlardan ucuz satılmasını da müşahidə edilir. Necə ki, bu, ötən il baş vermişdi. Ancaq, ümumilikdə, bu, kifayət qədər yüksək qiymətdir. Yəni bugünkü reallıqda 94-95 dollar yüksək göstərici sayılmalıdır. Çünki Azərbaycanın cari ildəki dövlət büdcəsində neftin bir barelinin qiyməti 60 dollardan götürülüb. Belə olan təqdirdə bu il üçün neftin orta qiymətini hətta 90 dollardan götürsək, bu, proqnoz göstəricidən 50 faiz çox deməkdir. Maliyyə Nazirliyinin açıqlamasında göstərildiyi kimi, neftin bir barelinin orta qiymətinin10 dollardan yuxarı olması Azərbaycanın dövlət büdcəsinə il ərzində 1,3-1,4 milyard manat daha artıq vəsaitin cəlb edilməsinə imkan yaradır. Qiymət fərqinin 30 dollar olması isə 4 milyard manatdan çox əlavə vəsait deməkdir. Bu da kifayət qədər yüksək rəqəmdir. Məsələn, cari ilin büdcəsi 3 miyard manatdan çox kəsirlə proqnozlaşdırılıb. Neftin büdcədə nəzərdə tutulan qiymətdən baha satılması isə o deməkdir ki, hökumət heç bir əlavə vasitələrə əl atmadan büdcə kəsirini bunun hesabına bağlaya bilər.

Eyni zamanda netdən gələn qazancın artması hökumətin manevr imkanlarını genişləndirir. Belə bir şəraitdə nəzərdə tutulmuş sosial yönümlü layihələrin icrası, ən əsası isə, işğaldan azad edilmiş ərazilərin bərpası üçün vəsaitin təmin olunması asanlaşır.

# Azərbaycanda Bilik Günü şənlikləri

## Heydər Əliyev Fondu 500-cü məktəbi də istifadəyə verdi

*Bunun son 19-u müəllim və şagirdlərə yeni tədris ilində hədiyyə edildi*



**Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 2004-cü ildən ölkənin şəhər və rayonlarında 500 məktəb tikilib və təmir olunub. Fond builki Bilik Günündə 500-cü məktəbi Şamaxı rayonunun Göylər kəndində istifadəyə verib.**




Açılış mərasimində iştirak edən Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov və Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri Rövşən Əliyev məktəbdə yaradılan şəraitlə tanış olublar.

Anar Ələkbərov şagirdlər və valideynlərlə də görüşüb, Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın salamlarını çatdırıb. Prezidentin köməkçisi bildirib ki, yeni tədris ilində Heydər Əliyev Fondu Bakıda və regionlarda əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil ocağını – 19 məktəb və 3 məktəbəqədər müəssisəni müəllim və şagirdlərin istifadəsinə verib. Tədris ili ərzində fondun inşa və təmir etdirdiyi daha 10 məktəbin açılışı nəzərdə tutulur. O, yeni məktəb binasında şagirdlərin yaxşı oxumaları üçün hər cür şərait yaradıldığını söyləyib, uşaqlara yaxşı oxumağı tövsiyə edib.

Bildirilib ki, 1975-ci ildə inşa olunan Göylər kənd 1 saylı tam orta məktəbin binası ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondunun dəstəyi ilə yanvar ayından başlanan tikinti işləri nəticəsində 624 şagird yerlik yeni məktəb binası inşa olunub. Üçmərtəbəli 4 korpusdan ibarət bina zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib.

**Məktəbin direktoru Əliyusif Qəniyev deyib ki,** məktəb binası yararsız olduğundan şagirdlərin yüksək səviyyədə təhsillə təmin olunmasında bəzi çətinliklər yaşanırdı. Lakin Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan yeni bina bütün bu problemləri arxada qoyub. Heydər Əliyev Fonduna, onun rəhbəri Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk ki, bizə, şagirdlərə belə gözəl məktəb hədiyyə etdi.

Valideynlər də belə gözəl məktəb binasının inşa olunmasından minnətdarlıqla söz açıblar: "Sevinirik ki, uşaqlarımız üçün belə gözəl, yeni məktəb binası tikilib. Əvvəlki bina yararsız idi. Sağ olsun Heydər Əliyev Fondu, onun rəhbərliyi, bizim uşaqlar üçün belə gözəl şərait yaradıb. İnşallah, uşaqlarımız da bu qayğıya yaxşı oxumaqla cavab verərlər, ali məktəblərə qəbul olunarlar".

Binanın girişində şagirdləri Ulu öndərimizin bu sözləri qarşılayır: "Bizim borcumuz, vəzifəmiz şərait yaratmaqdan ibarətdir ki, hər bir gənc, hər bir uşaq istedadını inkişaf etdirə bilsin, ona imkan yaransın".

*

**Dünən Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, elm və təhsil naziri Emin Əmrullayev və ictimaiyyət nümayəndələri Göyçay, İsmayıllı və Qəbələdə yeni istifadəyə verilən təhsil müəssisələrinin də açılışında iştirak ediblər.**

**1969-cu ildə inşa olunan Məhəmməd Füzuli adına Göyçay şəhər 6 saylı tam orta məktəbin binası istifadəyə yararsız vəziyyətə düşmüşdü.** Heydər Əliyev Fondu 2023-cü ilin yanvar ayından burada əsaslı təmir-bərpa işlərinə başlamışdı. Qısa zamanda görülən işlər nəticəsində bir korpusu 3 mərtəbə, digər korpusları 2 mərtəbə olmaqla, 4 korpusdan ibarət 624 şagird yerlik təhsil müəssisəsi istifadəyə verilib. Məktəbdə 30 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası yaradılıb. Təhsil müəssisəsi zəruri mebel və avadanlıqla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təmin edilib,

**Heydər Əliyev Fondunun təhsil sahəsində layihələri ötən müddətdə İsmayıllı rayonunu da əhatə edib.** Bu günədək Fond İsmayıllı şəhərində, eləcə də rayonun müxtəlif kəndlərində orta məktəb, uşaq bağçaları istifadəyə verib. Heydər Əliyev Fondunun yeni tədris ilində İsmayıllı rayonunda təhsil sahəsində gördüyü işlərə biri də əlavə olunub. Fondun təşəbbüsü ilə burada 280 şagird yerlik 4 saylı tam orta məktəb üçün yeni bina tikilib. 1979-cu ildə inşa olunmuş İsmayıllı şəhər 4 saylı tam orta məktəb ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondu tərəfindən bu ilin yanvar ayında başlanılan tikinti işləri nəticəsində 3 korpusdan ibarət təhsil ocağı inşa olunub.

**Qəbələnin Nic qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1 nömrəli tam orta məktəbin binası inşa edilərək istifadəyə verilib.** Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2021-ci ilin may ayında Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsində fondun apardığı bərpa işləri ilə tanışlığı zamanı Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili dövlət başçısına burada 150 yaşı olan məktəbin təmiri ilə bağlı müraciət etmişdi. Bununla əlaqədar olaraq Heydər Əliyev Fondu tərəfindən 1 nömrəli məktəb üçün yeni binanın inşasına başlanılmışdı.

Bilik Günündə istifadəyə verilən 2 mərtəbəli 200 şagird yerlik 1 nömrəli tam orta məktəbdəki fənn kabinetləri və laboratoriyaları lazımi avadanlıqla və əyani vəsaitlərlə təchiz edilib. Məktəbdə kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası şagird və müəllimlərin istifadəsinə verilib. Təhsil ocağının həyətində abadlıq və yaşıllaşdırma işləri görülüb.

## Laçında 31 ildən sonra məktəb zəngi çalındı



**Yeni dərs ili qaçqınlıq taleyi yaşamış Mehriban ana ilə qızı Şəbnəm üçün xüsusilə sevindiricidir. Laçına dönmək arzusu, nəhayət, gerçəyə çevrildi. Özü də Şəbnəm vaxtilə nəsillikcə oxuduqları Laçın şəhər 2 nömrəli tam orta məktəbində tədris işləri üzrə direktor müavini kimi fəaliyyətə başlayıb. Övladları Dəniz və Günəş də təzə məktəbdə dərsə gediblər.**

Mehriban nənə yenicə qovuşub məskunlaşdıqları doğma evin eyvanından məktəbə baxıb kövrəlir. Bunun səbəbi var. Axı, uzun illər onun anası Şəfiqə Baxışova və həyat yoldaşı Tofiq Əhmədov məhz bu məktəbin müəlimləri olublar. Özü də, uşaqları da burada oxuyublar. Bu gün rəhmətlik Şəfiqə və Tofiq müəllimin ruhları şaddır. Söhbət zamanı öyrənirik ki, fədakar müəllim, cəfakeş el anası olmuş Şəfiqə Baxışovanın gözəl natiqliyi, yazı üslübu olub. "Şərəf nişanı" ordeninə, "Qabaqcıl maarif xadimi" nişanına layiq görülüb. İndi nəvəsi Şəbnəm onun yolunu davam etdirir.

**İngilis dili müəllimi olan Şəbnəm Cəbrayıl bura köçənə qədər Ağcabədinin Taxtakörpü qəsəbəsindəki tam orta məktəbdə çalışıb.** "Şagirdlərimin oxumaq həvəsi, gələcəyə olan inamı, vətənə, millətə olan bağlılığı məni hər zaman qürurlandırır" – deyən Şəbnəm müəllim indi doğma yurddakı 2 nömrəli şəhər tam orta məktəbində direktor müavinidir. Onun ürək sözləri:

– Böyük Qayıdış proqramına uyğun olaraq, həsrəti ilə böyüdüyüm doğma Laçına qayıtmaq əsl səadətdir. Mənim üçün Laçında yaşamaq, Laçında xidmət etməkdən üstün tuta biləcəyim heç bir vəzifə ola bilməz! Elə buna görə də könüllü olaraq Taxtakörpü qəsəbə tam orta məktəbində direktorluqdan imtina edərək Laçında, bilavasitə möhtərəm Prezidentimiz İlham Əliyevin açılışını etdiyi bu məktəbdə çalışmağı üstün tutdum.

**Şəbnəmin həyat yoldaşı Orxan Cəbrayıl bildirdi:**

– Bilik Günü münasibətilə Şəbnəmi, Dənizlə Günəşi, bu məktəbdə ilk zəngin sədasına yığışan hər kəsi təbrik edirəm!

Onu da qeyd edək ki, Bilik Günü ərəfəsində Bank Respublikanın əməkdaşları Laçın şəhərinə səfər edərək balacalara məktəb ləvazimatlarından ibarət çantalar hədiyyə ediblər.

Səhifəni hazırladılar: T.AYDINOĞLU, Əli NƏCƏFXANLI, Pünhan ƏFƏNDİYEV XQ



### Bakı

**Paytaxtdakı 247 nömrəli tam orta məktəbdə ilk dərs gününə həsr olunmuş bayram şənliyi keçirilib.**

Məktəbin direktoru Sitarə Abbasova şagirdlərə yeni tədris ilində uğurlar arzulayıb. O, yeni dərs ilində təhsil müəssisəsinin qarşıya qoyduğu məqsədlərdən söz açıb, məktəb məzunlarının qəbul imtahanlarındakı nailiyyətlərindən bəhs edib.

Bakı Şəhər Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva yeni tədris ili münasibətilə müəllim, valideyn və şagirdləri təbrik edib, şagirdlərə müstəqil Azərbaycanın layiqli vətəndaşları olmağı, bilik və zəhmətləri sayəsində nailiyyətlərini daha da artırmağı arzulayıb. O, təhsilin dövlət siyasətinin əsas prioritetlərindən olduğunu diqqətə çatdıraraq Prezident İlham Əliyev tərəfindən Azərbaycan təhsilində aparılan sistemli islahatlardan bəhs edib.




Çıxış edənlər ölkəmizdə təhsilin inkişafı istiqamətində görülən işlər və bu sahədə həyata keçirilən tədbirlər barədə danışıb, Prezident İlham Əliyevin təhsilə diqqət və qayğısından söz açıblar.

Mərasim şagirdlərin hazırladıqları ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

*

**Bilik Günü münasibəti ilə Qaradağ rayonu ərazisində yerləşən təhsil müəssisələrində də tədbirlər keçirilib.**

Qızıldaş qəsəbəsi Azər Namazov adına 180 nömrəli tam orta məktəbdə keçirilən mərasimdə Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov və Milli Məclisin deputatı Aydın Hüseynov, YAP Qaradağ təşkilatının sədri Qafar Əliyev iştirak ediblər. Məktəbin həyətində hər iki Qarabağ müharibəsi şəhidlərinin şərəfinə ucaldılmış xatirə kompleksi ziyarət edilib, tər çiçəklər düzülüb.

Bu il rayon məktəblərini 1731 nəfərin bitirdiyi, 1138 abituriyentdən 710-nun tələbə adını qazandığı, onlardan 22-nin isə 600-dən çox bal topladığı diqqətə çatdırılıb.

### Ağdam




**Ağdam rayonunun Mahrızlı kəndində Rahib Məmmədov adına məktədin 320 şagird yerlik yeni binası istifadəyə verilib.**

Mərasimdə çıxış edənlər ölkəmizdə təhsilə verilən önəmdən, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahədə gördüyü ardıcıl tədbirlərdən, təhsil ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlərdən danışıblar.

Sonra tədbir iştirakçıları məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar. İkimərtəbəli məktəb binasında sinif otaqları, kimya, biologiya və fizika laboratoriyaları, hərbi hazırlıq, informatika və hesablama texnologiyası kabinələri, idman və akt zalları, kitabxana, yeməkxana, inzibati otaqlar yaradılıb.

Müəllimlər və valideynlər təhsilə göstərilən dövlət qayğısına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

### Saatlı



**Rayon Qaracalar kəndində Heydər Əliyev Fondu tərəfindən inşa edilən məktəb binasının Bilik Günündə istifadəyə verilməsi sakinlərin böyük sevincinə səbəb olub.**

Müasir tələblər səviyyəsində tikilmiş 360 şagird yerlik yeni məktəb binası müəllim və şagirdləri qoynuna alıb. Yeni təhsil ocağının açılış tədbirində Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin rəsmiləri, Saatlı Rayon İcra Hakimiyyətinin rəhbərliyi, məktəb kollektivi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edənlər şagird və müəllimləri yeni tədris ili münasibətilə təbrik edib, onlara uğurlar arzulayıblar.

Qeyd edilib ki, Heydər Əliyev Fondunun 2023–2024-cü tədris ili üçün təhsil sahəsində reallaşdırdığı növbəti layihəsinin ünvanı Saatlı rayonunun Qaracalar kəndidir.

Üçmərtəbəli və 2 korpuslu bu təhsil ocağı da digərləri kimi, zəruri mebel və avadanlıqlarla təmin edilib, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz olunub, təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilib.

### Füzuli



**Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə jurnalistlərə açıqlamasında elm və təhsil naziri Emin Əmrullayev bildirib:**

Bu tədris ilində 133 mindən çox şagirdimiz birinci sinfə qədəm qoyub, ümumilikdə isə 1,5 milyon şagird məktəblərdə təhsilini davam etdirəcək. İşğaldan azad edilmiş Füzulidə ilk tədris ilinə başlanılması çox sevindirici haldır. Qürurlu bir günə şahidlik edirik. Hazırda məktəbdə 160 şagird təhsil alır, amma bu tədris ilində onların sayı 400-ə çatacaq. Laçın şəhərində 140-a yaxın şagird tədrisə başlayıb, onların da sayı artacaq. Zabux qəsəbəsində isə tədris ilinin sonuna qədər 100-dən artıq şagird məktəbə gedəcək. Ağalı kəndində ötən il cəmi 70 şagird var idisə, bu il məktəb 120 şagirdlə təhsilə davam edir. Talış kəndində də məktəbdə tədris aparılır.

Ümumiyyətlə işğaldan azad olunan ərazilərdə hazırda məktəblərin tikintisi, təhsil infrastrukturunun yaradılması istiqamətində işlər davam edir. 8 peşə təhsil müəssisəsi də tikiləcək və bunların hər biri böyük həcmli komplekslər olacaq. Onlardan birincisinin təməli Prezident İlham Əliyev tərəfindən Füzuli rayonu ərazisində qoyulub və layihələndirmə işi artıq yekunlaşıb, noyabr ayında işlərə başlanması planlaşdırılır.

Növbəti mərhələdə isə Şuşa şəhərində belə bir layihənin gerçəkləşməsi nəzərdə tutulub. Ümumiyyətlə, işğaldan azad olunan bütün rayonlarda peşə təhsili infrastrukturu yaradılacaq.

Xalq TV-nin müsahibləri

# “Azərbaycan ruhumuzun Vətənidir”

## Türkiyə irəvanlıları və borçalıları redaksiyamızın qonağı oldular

**Xalq TV-nin budəfəki qonaqları qardaş Türkiyədən gələn “irəvanlılar” idilər. Ötən əsrin 20–30-cu illərində erməni millətçilərinin zülmündən cəlayi-vətən olmuş İrəvan xanları nəslinin davamçıları Türkiyəyə pənah aparıblar. O zaman qırmızı repressiyadan xilas ola bilən bu insanlar qardaş ölkənin müxiəlif bölgələrində məskunlaşıblar. Harada yaşamalarından asılı olmayaraq, doğma yurd yerlərindən didərgin düşən irəvanlıların qəlbində Vətən həsrəti illər uzunu köz bağlayıb.**



İrəvan xanları soyundan olan Türkiyə–Azərbaycan Dostluq Dərnəkləri Federasiaysının başkanı, Avropa Azərbaycan Dərnəkləri Federasiyasının qurucusu Seyfəddin Ayakyay, Türkiyə Dostluq Dərnəkləri Federasiyasının başkanı, Qars millət vəkili Aziz Kaykısız, Manisa Azərbaycan Kültur Evinin başkan yardımcısı Kaffer Hangül bir neçə gündür Azərbaycanın qonağıdırlar. Onların sırasındakı Məsimoğlu İmaməlinin nəvələri – 30-cu illərdə Borçalı mahalının Faxralı kəndindən Qarsa köç etmiş, hazırda Manisa şəhərində yaşayan



Vəli Taşdemiroğlunun övladları Yalçın bəy və Ahmet Dəmirçi dədə-baba torpaqlarını ziyarət etməyə gəliblər.

Əvvəlcə irəvanlı qonaqlarımızın ağsaqqalı, Qars millət vəkili, Türkiyə – Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının başkanı Aziz Kaykısızı dinlədik:

– Vətən sözündən müqəddəs kəlam yoxdur. Qarsda doğulsam da, hər zaman özümü irəvanlı bilmişəm. Dədəm İrəvanda başlarına gətirilən müsibətləri bizə danışar, hönkür-hönkür ağlayardı. Qarsda irəvanlılar çoxdur. Yadımdadır, dədəm onları başına yığıb Vətənin dağından, daşından, təbiətindən, gözəl insanlarından söhbət açırdı. O, İrəvanı çox görmək istəyirdi, amma nəsib olmadı. Sovetlər vaxtında yollarımız bağlı idi. İndi sevinirəm ki, Azərbaycana rahat gəlib-gedə bilirik.

Qarabağ torpaqları işğal olunanda içimiz qan ayğlayırdı. 44 günlük möhtəşəm qələbənin sevincini isə sizinlə birgə yaşadıq. Azərbaycanın uğurlarını hər zaman bayram edirik, çünki heç bir qüvvə Vətəni bizdən ayıra bilməz. Harada yaşayırıqsa, fərq etməz, Azərbaycan sevdalıyıq, irəvanlıyıq. Qədərimizlə yaşayırıq. Azərbaycanın dövlət rəhbəri İlham Əliyevin 44 günlük Vətən müharibəsində Ali Baş Komandan kimi tarixə Zəfər gününü yazmasını bütün Türkiyə bayram etdi. Bu gün də xoş məramla Azərbaycan gəlmişik.

**Növbəti müsahibimiz Manisada yaşayan Azərbaycan Kültür Evinin başkanı Seyfəddin Ayakyaydır. Seyfəddin bəy əsli, soy-kökü barədə öyünclə söz açdı:**

– Mənim əslim, köküm İrəvan xanlarından biri olan Hüseynqulu xanın şəcərəsi ilə bağlıdır. Babam xan nəslindəndir. Hüseynqulu xanın qardaşı İlyas xanın oğlu Muxtarın oğluyam. Mən də Qarsda doğulmuşam. Evimizdə İrəvan kəlməsi eşitdiyim gündən öyrənmişəm ki, nəslimiz-nəcabətimiz İrəvandan gəlmədir. Hətta dədəmin necə yanıqlı ah çəkməsinə, həsrətli gözlərinə baxanda içim göynəyirdi.

Dədəm deyirdi ki, 1917-ci ildə ermənilər başımıza elə bir faciə gətirdilər ki, dağları aşa-aşa gəlib Qarsa çatdıq. Bir əmim yolda həlak oldu. Qohumlarımızın çoxu yollarda qaldı, zülm ərşə qalxdı. Qadınlar, qız-gəlinlər vəhşi ermənilərin süngüsü ilə tələf oldular. O illərdəki müsibəti yazmaqla, söyləməklə qurtarmaz. Atama dədə deyirdik. Dədəm ölən gününə qədər “İrəvanı bir daha görə bilməyəcəyəmmi?”– deyib göz yaşı tökürdü. Xan oğlu atamı ağladan bir acı vardı: Vətən, torpaq, İrəvan həsrəti.

Bu gün Azərbaycana böyük bir sevgi ilə gəlmişik. Ürəyimiz dağa dönüb. Prezident İlham Əliyevin çıxışlarını diqqətlə dinləyirik. Türkiyə – Azərbaycan qardaşlığının zirvələr fəth etməsinə xeyir-duamızı əsirgəmirik. Səmimi qəbula, ürək sözlərimizi Azərbaycan xalqına çatdırmağımıza yaratdığı imkana görə redaksiya rəhbərliyinə minnətdarlığımızı bildiririk. Ürəyimiz sözdə doludur, danışdıqca qurtarmaz. Öyüncümüz odur ki, biz irəvanlıyıq, o kökü, o soyu yaşadırıq.

**Manisa Azərbaycan Kültür Evinin başkan yardımçısı, irəvan kökənli Kaffer Hangül də ata-babalarının yurd həsrətindən yanğı ilə danışdı:**

– Mənim də babalarım İrəvanlıdır. Fəxrlə deyirəm, mən irəvanlıyam. Bilirsinizmi, bura gələndə atama dedim ki, Azərbaycana gedirəm. Dədəm kövrəldi, mən də onun göz yaşlarına dözməyib ağladım, indi də özümü saxlaya bilmirəm.

**– Bizi də kövrətdiniz …**

– Bəli, İrəvan bizim ailəmiz üçün qürbətdə qalan Vətəndir, nisgilimizdir. Babam hər zaman söylər bunları: unutmayın, Siz irəvanlısınız. Qanımıza, canımıza işləyib bu sözlər. Ona görə də mən həyəcansız danışa bilmirəm. Azərbaycan mənim vətənimdir, onun yolunda ölməyə belə hazırıq. Bu gün Bakıya doyunca baxdım. Misilsiz bir şəhərdir. Burada keçirilən Türkiyə– Azərbaycan qardaşlığına həsr olunmuş növbəti məclisin iştirakçısıyam. Jurnalistlər, diaspor nümayəndələri Azərbaycan–Türkiyə qardaşlığı naminə birlik nümayiş etdirirlər. Çox istərdik ki, sizin Xalq TV ilə əlaqələrimizi gücləndirək. İrəvanla bağlı hazırladığımız videomaterialları sizə göndərəcəyik. Bu çox vacibdir. İrəvanın tarixi keçmişi, erməni daşnaklarının zorla ora yerləşdirilməsi ilə bağlı sizin verdiyiniz bilgilərə ehtiyacımız var, ona görə də Xalq TV ilə əməkdaşlıq etmək istəyirik.

**– İrəvanlılarla birgə bu səfərdə Bakıya qonaq gələn daha bir həmvətənimizlə də söhbət etdik. Manisa Azərbaycan Kültür Evinin təşkilat başkanı Yalçın Taşdemir əslən Borçalı mahalının Faxralı kəndindəndir. O, Qarsda doğulub. 1934-cü ildə dədə-babaları Ağrıya, sonra isə Qarsa gedib orada yurd salıblar.**

– Mənim babalarım Borçalı mahalının Faxralı kəndində yaşayıblar. 1934-cü ildə yurd yerlərini tərk etməyə məcbur olub, Ağrıya üz tutublar. Babalarımın evini sovet hökuməti dövlətin ixtiyarına keçirib. Həmin mülkü Faxralı kənd orta məktəbi üçün inzibati binaya çeviriblər. Atam hər zaman qaçqın düşmələrindən danışar, yurd yerlərinin həsrətini çəkərdi. Bizim nəsil Məsimoğlu İmaməlinin – babamızın adı ilə tanınıb.

Azərbaycanı, Borçalını görmək hər birimizin istəyi olub, çünki bizim dədələrimiz bu torpaqlarda doğulublar. İnsan Vətənini unuda bilərmi? Əsla! Biz də bu məhəbbətlə böyüdük. Canımızla, qanımızla Azərbaycana bağlandıq. Bir neçə gündür ki, Bakıdayıq, ruhumuzun Vətəninə qovuşmuşuq. Türkiyə – Azərbaycan qardaşlığının daim zirvədə qalması üçün hamımız əl-ələ verib çalışmalıyıq.

Azərbaycanla Türkiyə bir bədəndə iki candır. Ona görə də birliyimizi, diriliyimizi qorumalıyıq. Xalq TV bizə bu gün qapılarını açdı, ürəyimizdəkiləri söylədik, xalqımıza dediklərimizlə rahatlıq tapdıq.

**– Yurda, soy-kökə belə bağlılığınız bizi də qürurlandırdı, məmnun etdi. “Xalq qəzeti”ndə, Xalq TV-də ortaq səylərlə bir yerdə olacağıq.**

*Söhbəti apardı:*
***Kəmalə ABDİNOVA***

KÖŞƏ

# Sonra gec olar

## *Bölgə mətbuatı: tamam, yoxsa davam?*

**Peşəmlə bağlı əvvəldən dünya mediasını, baş verən hadisələrin xalqa necə çatdırılması formalarını daim nəzərdən keçirir, materialların oxunaqlı olması üçün mətbuatın necə şəkillənməsini öyrənirdim. Uzun illərin söhbətidir, xarici mütəxəssislər, ənənəvi medianın internet media qarşısında necə duruş gətirə biləcəyini müzakirə edir, qəzetlərin yaşam yollarını arayırdılar. Mütəxəssislər deyirdilər ki, mətbuatı yaşatmanın tək yolu ona əmtəə, yəni bazar məhsulu kimi baxmaqdır. Məhsul keyfiyyətli olarsa, bazarda özünə alıcı tapa bilər və qurbana çevrilməz.**



*Əminə YUSİFQIZI,*
*aminayusifqizi@mail.ru*

O vaxt bu fikrə sağlam mövqedən baxa bilmirdim: Mətbuat mədəniyyətdir, o, bazar məhsulu ola bilməz, – deyə düşünürdüm. Aradan xeyli vaxt keçdi, fikrimdə yanıldığım qənaətinə gəldim. Amma bu da bir reallıqdır ki, hazırda xarici ölkələrdə qəzetçilik əvvəlki nüfuzunu qoruyur, nəşrlər satılır və internet medianın qurbanına çevrilmir. Düşünürəm ki, bunun səbəbi bəzilərinin dediyi kimi, heç də yalnız bazara keyfiyyətli məhsul çıxarmaqla bağlı deyil. Əlbəttə, əlverişli reklam mühitinin mövcudluğunun da əmtəənin keyfiyyətində və satışında müstəsna rolunu unutmuram. Zənnimcə, ən önəmlisi budur ki, oxucu oxumaq və görmək istədiyini tapır və bu səbəbdən öz büdcəsindən qəzet almaq üçün vəsait ayırır.

Təəssüflə bildirim ki, ölkəmizdə qəzetə münasibət bir qədər fərqli oldu. Xüsusən də bölgə qəzetlərinə. Mətbuatımızın banisi Həzən bəy Zərdabi deyirdi ki, hər bir vilayətin qəzeti o vilayətin aynasıdır. Bu gün bölgələrimizin baxmağa aynası, demək olar, yox dərəcəsindədir. Sovet İttifaqı dövründə rayon partiya komitələrinin, müstəqillik dönəmində rayon icra hakimiyyətlərinin orqanı olaraq fəaliyyət göstərmiş nəşrlər hazırda lazımsız əşya kimi kənara atılıb.

Əslində, əvvəllər də mövcud istiqamətdə heç də xoş olmayan durum var idi. Belə ki, bölgə kütləvi informasiya vasitələrinin bəziləri ayaqüstə qala bilsələr də, çoxları bunu bacarmırdı. Tək-tük qəzetlər öz güclərinə fəaliyyət göstərirdi. Bəziləri isə yaşamlarını rayon icra hakimiyyətlərinin himayəsi hesabına yaşayırdı. Buradan həmin rayonların rəhbərlərinə təşəkkür edirəm. Hər halda, qəzetə və qəzetçiliyə önəm verirdilər.

Uzun müddət rəhbərlik etdiyim, 90 yaşını haqlamağa az qalmış Yevlaxın “Kür” qəzeti son zamanlar bayramdan bayrama, heç bir dəstək olmadan, kollektivin və ayrı-ayrı sadiq abunəçilərin vəsaiti hesabına nəşr olunurdu. Əlbəttə, belə davam edə bilməzdi və etmədi də. Günlərin birində qəzetimiz fəaliyyətini dayandırdı. Təsəllimiz odur ki, bu dayanmamız müvəqqətidir.

“Kür”ün belə aqibət yaşamasının səbəbləri çoxdur. Əvvəlki yazılarımda bu barədə söz açmışam. İlk növbədə, obyektiv amilləri sadalamışam: regionalarımızda mətbəələr yox dərəcəsindədir, maddi-texniki baza da həmçinin. Üstəlik, peşəkar kadrlar bölgələrdə çalışmaq istəmirlər, bölgə mediasının inkişafına şərait yaradılmır, qrantlar, reklamlar ayrılmır və sair. Amma bütün bu sadaladıqlarımı, o cümlədən haqqında söz açmadığım problemləri aradan qaldırmaq göründüyü qədər də çətin deyil. Sadəcə, niyyət lazımdır. Yəni düşünmək şərtdir. Bölgə mətbuatını yaşatmaq üçün əsasların yaradılması haqqında düşünməyi nəzərdə tuturam. Axı Azərbaycan təkcə Bakı şəhərindən ibarət deyil. Onu da düşünək ki, 10 milyonluq əhalinin yalnız 3 milyona qədəri paytaxtda yaşayır.

Qonşu və qardaş Türkiyədə qəzet yazarları, xəbər jurnalistləri ölkənin siyasi nəbzini, iqtisadi və mədəni gedişatını yönləndirirlər. Günün indisində hər sabah erkəndən Türkiyədə mağazalar, metrolar, iş yerləri, lokantalar açılmamış, evlərin qapısını qəzetlər açır. Bu, mətbuata verilən dəyərin bariz nümunəsidir. Bir zamanlar bizdə də belə idi. Bəs indi? İndiki durumun ayrı-ayrı cəhətlərinə aydınlıq gətirdim. Vəziyyətdən çıxmağın yolunu da göstərdim.

Ümumən, qəzet yaşamdır, ənənədir. Bölgə mətbuatı da ənənədir. Rayonlarımızda mədəni mühiti, sosial cəmiyyəti ayaqda tutan ənənə. Bu mətbuat tariximizin və mədəniyyətimizin saxlancı, yaddaşı və arxividir. Çağırışım budur ki, ona biganə yanaşmayaq. Nəzərə alaq ki, vaxtilə dövrün aydın insanları qəzetlərdə yetişirdi. Nəşrlər bədii dilin zənginləşməsinə töhfələr verir, gənclər, məktəblilər onu oxuyaraq dillərini inkişaf etdirirdilər.

Bəli, XXI əsr informasiya əsridir. İnternet informasiyanı mübarizə predmetinə çevirir. Hətta mübarizəni daha da kəskinləşdirir və radikallaşdırır. Belə bir qlobal konfrantasiyalar mühitində mədəniyyətlərin, ənənələrin qorunmasına ehtiyac duyulduğu bir məqamda böyük bir mədəniyyət eramızı – region mətbuatı ənənəmizi sıradan çıxarmaqla səhv etmirik ki?

# “Türk Dövlətləri İqtisadiyyatı” kitabı Azərbaycanda hazırlanıb

## İstanbulda isə fundamental nəşrin yüksək səviyyəli təqdimatı keçirilib



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyi ilə birlikdə hazırladığı “Türk Dövlətləri İqtisadiyyatı” kitabı Türkiyənin İstanbul şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq üzrə İşçi qrupun 14-cü görüşündə təqdim olunub.**

Kitabı İİTKM-in nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri vəzifələrini icra edən Ayhan Satıcı təqdim edib. O bildirib ki, kitabın yazılmasında məqsəd Türk dövlətlərində cərəyan edən müsbət iqtisadi trendlərin vahid iqtisadi mənbədə cəmləşdirilməsidir. Həmçinin kitabda Türk dövlətlərinin TDT çərçivəsində regionda güclənən geoiqtisadi və geosiyasi mövqeləri həm çoxtərəfli, həm də ikitərəfli perspektivdə nəzərdən keçirilib.

Qeyd edək ki, “Türk Dövlətləri İqtisadiyyatı” kitabı iki hissədən ibarətdir. Birinci hissə Türk dövlətlərinin iqtisadiyyatı barədə ümumi, ikinci hissə isə hər bir ölkənin son 10 ildə qeydə alınmış iqtisadi göstəricilərinə dair spesifik məlumatlardan ibarətdir. Məlumatlar bir neçə istiqamət üzrə qruplaşdırılıb. Belə ki, kitabda Türk dünyası ölkələrinin iqtisadiyyatı makro və mikro səviyyədə təhlil edilib. Türk dünyasında birgə əməkdaşlıq mexanizminə müqayisəli yanaşma sərgilənib, hər bir müstəqil dövlətin Türk dünyasındakı rolu araşdırılıb, eləcə də Türk dünyasında imkanlar və inkişaf perspektivləri təqdim olunub.

Kitabda Türk dövlətlərinin çoxtərəfli ticarətinə təsir edən amillərə “Qravitasiya modeli” əsasında yanaşılıb, Zəngəzur Dəhlizinin Mərkəzi Asiya və Cənubi Qafqaz regionu ölkələrinin perspektivinə və qarşılıqlı iqtisadi münasibətlərinə təsiri təhlil olunub. Həmçinin “Qraflar nəzəriyyəsi”nə istinad edilməklə Türk dünyasında birbaşa xarici investisiya və ticarət dinamikasının təhlili aparılıb. Bundan başqa, Türk dövlətlərinin iqtisadi əməkdaşlığının institusional əsasları “Türk dünyası 2040 vizyonu” kontekstində araşdırılıb.

“Türk Dövlətləri İqtisadiyyatı” kitabının yazılmasında yeddi Türk dövlətinin iqtisadi tədqiqatlar sahəsində tanınmış 35-dən artıq alimi iştirak edib. Kitabın elmi redaktoru İİTKM-in icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlıdır.

İngilis dilində hazırlanan kitabın yazılmasında Qazaxıstanın İqtisadi Araşdırmalar İnstitutu, Qırğızıstan Respublikasının Prezidenti yanında Milli Strateji Araşdırmalar İnstitutu, Qırğızıstan Respublikasının Milli Elmlər Akademiyası, Özbəkistanın İqtisadi Araşdırmalar və İslahatlar Mərkəzi, Macarıstanın Xarici Əlaqələr və Ticarət İnstitutu və Budapeşt Metropolitan Universiteti, Bursa Uludağ Universiteti, UNEC-in Türk Dünyası İqtisad Fakültəsi, Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu kimi beyin mərkəzləri yaxından iştirak edib.

Qeyd edək ki, kitabın təqdimatı Türk dövlətlərinin hər birində keçiriləcək. Bundan başqa, kitabın nüsxələri həmin dövlətlərin əsas elmi kitabxanalarına göndəriləcək.

***XQ***

# Minskdə Azərbaycan dili və mədəniyyəti mərkəzi



**Bugünlərdə Minsk Dövlət Linqvistik Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzi fəaliyyətə başlayıb.**

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullanın və Minsk Dövlət Linqvistik Universitetinin rektoru, professor Natalya Laptevanın təşəbbüsü, Azərbaycanın Belarusdakı səfirliyinin dəstəyi ilə yaradılmış mərkəzin açılış mərasimində hər iki ali məktəbin rəhbəri Azərbaycan dili və mədəniyyəti mərkəzinin açılmasının ölkələrimizin ictimai-siyasi həyatında bu universitetlərin elmi-pedaqoji fəaliyyətində mühüm əhəmiyyət kəsb edəcəyini bildirib. Tədbirdə iştirak edən hər iki ölkənin diplomatları və tanınmış ziyalıları mərkəzin fəaliyyətinə uğurlar arzulayıblar.

Sonra Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunmuş "Belarus və Azərbaycan: Tarix, müasirlik və ikitərəfli əməkdaşlığın perspektivləri" adlı dəyirmi masa keçirilib. Kamal Abdulla və Natalya Lapteva Azərbaycan və Belarus respublikaları arasındakı siyasi, iqtisadi və mədəni əlaqələrin tarixindən bəhs ediblər. Akademik Kamal Abdulla Azərbaycanla Belarus arasındakı əlaqələrin qurulmasında Ulu öndər Heydər Əliyevin mühüm rolunu qeyd edərək əməkdaşlığın bugünkü səviyyəyə çatmasında Prezident İlham Əliyevin siyasi iradəsini də vurğulayıb.

Diskussiyaların davamında ölkələrimiz arasında siyasət, elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri, eləcə də Azərbaycan dövlətinin multikulturalizm siyasətindən bəhs olunub.

**XQ**

# Musiqisi dünyanı dolaşan bəstəkar

## *Müsahibimiz Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadədir*

**Azərbaycan bəstəkarı Firəngiz Əlizadənin “Muğamsayağı” əsəri Almaniyada musiqi dərsliklərinə salınıb. Oktyabr ayında isə Musiqi Forumu öz işinə başlayacaq. Bu və digər xoş xəbərlər barədə oxucuları geniş bilgiləndirmək üçün Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə ilə görüşüb söhbət etdik.**



***Firəngiz Əlizadə: Azərbaycan Bəstəkarlar İttifaqının üzvü (1974), Əməkdar incəsənət xadimi (1990), professor (1998), Xalq artisti (2000), AMEA-nın müxbir üzvü (2017), UNESCO-nun “Sülh artisti” (2007), “Şöhrət” (2007), “Şərəf” (2017) ordenləri laureatı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının üzvüdür. Azərbaycan Bəstəkarlar İttifaqının VIII (2007), IX (2012) və X (2019) qurultaylarında sədr vəzifəsinə seçilib. Firəngiz Əlizadə müasir Azərbaycan musiqi mədəniyyətinin dünya miqyasında ən tanınmış simalarındandır. Onun əsərləri xarici ölkələrdə ən böyük konsert və teatr səhnələrində, beynəlxalq festivallarda səsləndirilir. Onun musiqiləri milyonlarla xarici dinləyici tərəfindən böyük rəğbətlə qarşılanaraq beynəlxalq arenada şöhrət qazanıb.***

**–Firəngiz xanım, “Muğamsayağı”ndan başlayaq. Bu əsər Almaniyada musiqi dərsliklərinə salınıb.**

– O qədər belə hadisələr olub ki, həyatımda. Nədənsə, yalnız bu hadisə çıxdı üzə. İsraildən bir bəstəkar gəlmişdi, mənə dedi ki, sizin bəstəkarlıqda yetirmələrinizi də tanımaq istəyirəm. Dedim ki, mənim bəstəkar yetirməm yoxdur, çox təəccübləndi.

**– Görəsən, niyə yoxdur?**

– Mən də o suala cavab almaq istərdim. Bəstəkarlıqdan dərs demək üçün nə Milli Konservatoriyaya, nə də Musiqi Akademiyasına bu vaxtadək dəvət olunmamışam. Amma xaricdə bəstəkarlıqdan ustad dərsləri verirəm. Amerikadan belə, xeyli ölkədə tələbələrim olub, hamısının də əlimdə sənədləri var. Nədənsə, burada məni axtaran olmayıb.

**– Klassik musiqinin zirvələrdə olacağı zaman gələcək, hər sənət öz yerində olacaq.**

– Bizim çox gözəl ənənələrimiz var, onlara söykənərək hərəkət etməliyik. Tanrı bizə Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev kimi dahilər bəxş edib. Onların yaratdıqlarını, qurduqlarını, fədakarlıqlarını unuda bilmərik. Onlar istəyirdilər ki, Azərbaycanda klassik musiqi də inkişaf etsin. Mən Qara Qarayevin sinfində oxuyanda onun çox gərgin iş qrafiki var idi – gah Moskvada, gah burada işləyirdi. Deyəndə ki, müəllim, əsər yazın, bizə sizin əsərləriniz lazımdır, o bir əhvalat danışdı. Dedi ki, Cövdət Hacıyev bəstəkarlığı qurtarıb gələndə Üzeyir bəy ona dedi ki, bizə indi bəstəkar lazımdır, amma yalnız musiqi bəstələyən yox: “ Biz musiqi mədəniyyətimizi inşa etməliyik. Bəstəkar ictimai xadimdir”. Bunlar Üzeyir bəyin fikirləridir.

Baxın, mənim əyləşdiyim bu kresloda Qara Qarayev 35 il oturub. İndi telekanallarda səhərdən axşama toyxana musiqiləri səsləndirilir. Heç biri də Azərbaycan musiqisi deyil, ərəb, hind, türk, meksikan musiqilərinin qarışığıdır. Azərbaycan musiqisinin çalarları itirilir. Halbuki, bizim misilsiz muğamımız, gözəl xalq mahnılarımız var.

**–Qara Qarayev Şostakoviçdən də dərs almışdı, Fikrət Əmirov isə daha çox Rusiya bəstəkarlığının yetirməsi idi, amma onların musiqiləri millilikdən qətiyyən uzaqlaşmadı. İndi müstəqillik dövrüdür, öz milli bəstəkarlarımızdan dərs alan gənclər, nədənsə, digər ölkələrin musiqilərinin təsiri altına düşürlər.**

– Dediyiniz sənətkarlar, həm də böyük şəxsiyyətlər idilər, ruhlarında o qədər millilik var idi ki, xalq musiqisindən uzaq düşmələri mümkün deyildi. Cövdət Hacıyev şəkli idi, Qara Qarayev Novxanıdan. İndiki vəziyyət bir tərəfdən təhsilsizlikdən irəli gəlir, ikinci tərəfdən də sosial şəbəkələrdə tələbkarlıq yoxdur. İnsanlar parkda, bulvarda, harada gəldi toyxana musiqilərinə qulaq asırlar. Heç kim oturub simfonik musiqi dinləmir. Bir az da təbliğatdan asılıdır, o, böyük qüvvədir. Bizim televiziyalar nəyi təbliğ edir? – Toyxananı. Bütün günü müğənnilər toydan aldıqları vəsaitdən danışırlar.

Bir vaxtlar bizdə təhsil ən yüksək səviyyədə idi. Mən 2007-ci ildə Bəstəkarlar İttifaqına sədr seçiləndə bütün telekanallara məktub yazdıq ki, bədii şuralar bərpa edilsin. Cavanlıqda biz tələbələr, bəstəkarlar bədii şuranın iclaslarına gedirdik. Səid Rüstəmov Tofiq Quliyev musiqisində də vəznlərin düzgün olmadığını deyib və geri qaytarıb ki, bunları düzəlt, gətir. O, da düzəldib, amma heç vaxt da bir-birilərindən inciməyib. İndi deyirlər ki, yox, fikir demək, geri qaytarmaq olmaz, düşmənçilik yaranar. Demək, o sahədə başda oturan günahkardır. Bəzi kanallarda bədii şura bərpa olundu, amma o tərkibə kimlər salındı? Biz kimin ki, mahnılarını qəbul etmirik, onlar bədii şurada otururlar. Ona da çıxış yolu tapdılar. Hətta cənab Prezident bizi qəbul edəndə dedi ki, Firəngiz xanım deyir bədii şura olsun, görün, onun tərkibində kimlər oturub? Bax, bu, çox mühüm məsələdir.

**–Qayıdaq “Muğamsayağı”nın uğurlarına...**

– İlk dəfə Almaniyada mənim haqqımda “Görkəmli şəxsiyyətlər” silsiləsindən böyük kitab yazıldı. Onların kitabları çox xoşuma gəlir, çünki adama tərif vurmazlar, sadəcə, sənədləri və faktları göstərərlər və oxucu artıq sənin kim olduğunu özü müəyyən edir. Xədicə Orduxanova da haqqımda bir kitab işləyib. Orada da faktlar və sənədlərdir.

1992-ci ildə məni Türkiyəyə dəvət etdilər. Dedilər, Mersində Opera və Balet Teatrı yaratmaq istəyirik, siz gəlin, birlikdə bu işi quraq. Dedilər, sizə balet sifariş edirik – “Boş beşik” adında. “Boş beşik” Mersinin çox qədim əfsanəsidir. Baleti 3 aya yazdım. 1993-cü ilin yanvarında teatrı açdıq. Bakıdan hamını açılışa dəvət etmişdim, yalnız Tofiq Quliyev rəhmətlik gəldi. Sonra “Kronos–kvartet” məni Amerikaya dəvət etdi ki, o əsərin bir premyerası da bizdə olmalıdır. 1993-cü ilin sonunda əsər artıq milyonlarca insana çatmışdı, dinləmişdilər. Dünyada belə bir tendensiya var: Sənin əsərin neçə dəfə satılır, neçə nəfər bilet alır, nə qədər qonorar yığılır, hamısı qeyd olunur və sənin zəhmət haqqın ödənir. Bizdə təəssüf ki, bu yoxdur .

**– Əlbəttə, insan zəhmətinin haqqını almalıdır.**

– 4 yaşımdan musiqidəyəm, mənim bundan başqa qazanc yerim yoxdur. Özümü demirəm, heç bir ehtiyacım yoxdur. Axı, bizm bəstəkarlığı bitirən, o işlə məşğul olan gənclərimiz var. Nə ilə dolansınlar? “Muğamsayağı” milyon dəfələrlə ifa olunub. “Kronos – kvartet”də partlayış oldu. Sinqapur kvarteti “Muğamsayağı”nı ifa edib – görün hardan- hara. Deməli, dünyada ifa olunub. Çox uğurlu əsər oldu, adı da üstündə muğamımızdır. “Habilsayağı” əsərim də bütün dünyada ifa edilib. Dünyada elə violonçel ifaçısı yoxdur ki, bu əsəri ifa etməsin. İndi “Rəqs” əsərim çox yayılıb. Amerikalı musiqiçi Devit mənə dedi ki, deyəsən, “Rəqs” “Muğamsayağı”nı keçəcək. Dedim bu 2 milyon tamaşaçı qazanar.

**– Siz o vaxt Mersində opera teatrını yaradanda burada müharibə gedirdi, həyat yoldaşınız Qarabağ döyüşlərinə qatılmışdı...**

– O, I Qarabağ müharibəsinin qazisidir. Moskvada Kinematoqrafiya İnstitunu bitirib, həm də hərbi operatordur. Biz evləndik, oğlumuz dünyaya gəldi, bu hadisələr başlandı. Başımıza nələr gəlmədi? Həyat yoldaşım 20 Yanvar hadisələrindən nadir kadrlar çəkmişdi, sovet əsgərləri kamerasını əlindən alıb, qolunu da sındırmışdılar. Biz də Türkiyədə oğlumla oturub onun qayıdacağını gözləyirdik.

1988-ci ildə ilk dəfə Amerikaya getmişdim, həm konsert verdim, həm də dərs dedim. İlk konsertdən gələn qonorarla yoldaşım özünə kamera aldı ki, mənim konsertimi və mühazirələrimi çəksin. 1989-cu ildə məni 2-ci dəfə Amerikaya konsertə dəvət etdilər.

Mən getdim, o qaldı Bakıda, 20 Yanvar hadisəsini də o vaxt lentə almışdı. Mənim Mersindəki premyeramda yoldaşım iştirak edə bilmədi. Təkcə böyük bacım bizm evi kirayəyə verərək, onun pulu ilə bilet alıb gəlmişdi premyeraya.

1994-cü ildə I Aspendos festivalı mənim baletimlə açılıb. Səhnədə Süleyman Dəmirəlin teleqramını oxudular. O, fəxrlə bildirirdi ki, uluslararası festival türk əsəri ilə açılır.

**– Firəngiz xanım, siz həm də Almaniyada Berlin İncəsənət Akademiyasının professorusunuz.**

– Bəli, Türkiyədə fəaliyyət göstərəndə imkan genış idi, hər yerə səyahət edirdim, konsertlər, dərslər verirdim. Türkiyədə həm konservatoriya açdıq, həm opera teatrı. 1998-ci ildə Amerikadan dəvət aldım. Bildirilirdi ki, təqaüd də verirk, ev də, ailənizlə köçün bura. Bütün şərait yaradıldı, mən yalnız işlədim. Oğlum da yaxşı təhsil aldı. Sonra Almaniyaya köçdük. Oğlum 4 dildə sərbəst bilir, hazırda Almaniyada yaşayır. Mənim 2 qızıl diplomum var, 1979-cu ildən Bəstəkarlar İttifaqında çalışıram.

**– Sədr seçilməyinizdən, deyəsən, özünüzün də xəbəriniz olmayıb...**

– Tofiq Quliyev rəhmətə gedəndən sonra ittifaq dağılırdı, yurd-yuvamız da yox idi. Vasif Adıgözəlov rəhmətə gedəndən sonra isə məni çağırdılar ki, ittifaqın katibisiniz, gəlin qurultay keçirin, seçki olsun, sonra istəsəniz yenə gedərsiniz. Gəldim və Ramiz Zöhrabovla çox möhtəşəm qurultay keçirdik. 5 bəstəkarın 120 əsəri ifa olundu. Sonra da məni ittifaqa sədr seçdilər. İlk olaraq, ölkə başçısına müraciət etdim ki, köhnə yurdumuzu – Xaqani küçəsindəki əvvəlki binamızı qaytarsınlar bizə. Bu məsələ istədiyimiz kimi həll edildi. Şabranda bəstəkarlar üçün yaradıcılıq evi yaratdıq.

**– Bu gün bəstəkarlıq sahəsində vəziyyət necədir: nə çatır, nə çatmır, nə etmək lazımdır?**

– Çox iş görülməlidir. Oktyabr ayında Musiqi Forumu olacaq, ona hazırlaşırıq. Dediyiniz məsələlərin orada geniş müzakirə ediləcəyinə ümidliyik.

**– Biz də ümidliyik. Xalqın ruhunu təcəssüm etdirən musiqimizin qorunması və zənginləşdirilməsi yolunda sizə uğurlar diləyirik.**

***R.QURBANLI***

# Üzeyir Musiqi Günü bu il daha təntənəli keçəcək

## *Ölkənin musiqi ocaqları isə yeni mövsümə zəngin repertuarla gəlib*



Festival çərçivəsində Azərbaycan Bəstəkarlar İttifaqında sentyabrın 19-dan 22-nə qədər hər gün silsilə elmi konfranslar və konsert proqramları olacaq.

Bu gün isə Üzeyir Musiqi Günü ilə bağlı tədbirlərə start verilir. Azərbaycan Milli Xalça Muzeyində “Xalçalarda musiqi” adlı sərgi açılacaq və uşaqlar üçün konsert proqramı təşkil olunacaq. Sərgidə muzeyin kolleksiyasından musiqi sənəti ilə əlaqəli 11 ədəd zəngin kompozisiyalı portret və süjetli xalçalar, qobelenlər nümayiş etdiriləcək. Xalq rəssamları Tahir Salahov və Eldar Mikayılzadənin görkəmli bəstəkarlar Üzeyir Hacıbəyli, Qara Qarayev və Dmitri Şostakoviçə həsr etdikləri portret xalçaları, xalçaçı-rəssamlar Gülmurad Bəbirov, Bəsti Şərif, rəssamlar Pavel Kuzmenko, Rimma Eminova və Faiq İbrahimovun əsərləri ekspozisiyada aparıcı yer tutur.

***

Ölkənin musiqi ocaqları da yeni mövsümə başlayacaq. Sentyabrın 19-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının yay zalında milli kinematoqrafiyamızın 125 illiyinə həsr olunmuş konsert təşkil ediləcək.

Bu il filarmoniyanın səhnəsində tanınmış bəstəkarların ənənəvi yaradıcılıq gecələri təşkil ediləcək. Xalq artisti, bəstəkar Vasif Allahverdiyevin 60 illiyi, xalq artistləri Tofiq Bakıxanov, Eldar Mansurov və Nəriman Məmmədovun yaradıcılıq gecələri, görkəmli rus bəstəkarı Sergey Raxmaninovun 150 illiyinə həsr olunmuş fortepiano axşamı, violonçelçi Sabir Əliyevin 95 illiyi ilə bağlı tədbir, İlyas Mirzəyevin 60 və Fərəc Qarayevin 80 illiyinə həsr olunmuş yaradıcılıq axşamları musiqi gündəmində aparıcı yer tutacaq. Xarici ifaçıların və tanınmış musiqi kollektivlərinin iştirakı ilə konsertlər nəzərdə tutulub. Fransada yaşayan soydaşımız, Əməkdar artist, Fransanın Ali Beynəlxalq Musiqi Akademiyasının direktoru Adilə Əliyeva öz çıxışı ilə klassik musiqi həvəskarlarını sevindirəcək.

Gənc istedadlara və bəstəkarlara öz yaradıcılıqlarını böyük səhnədə nümayiş etdirmək imkanı verən filarmoniyanın “Gənclərə dəstək” layihəsi çərçivəsində

(əvvəli 1-ci səhifədə)

Sentyabrın 18-i saat 15-də Beynəlxalq Muğam Mərkəzində konsert proqramı təşkil ediləcək. Həmin gün bu mərkəzdə “Açıq qapı” elan edilib və konsertə giriş sərbəst olacaq. Konsert proqramında mərkəzin solistləri – əməkdar artistlər Səbuhi İbayev, Ehtiram Hüseynov, xanəndələr Hüseyn Məlikov, Ayşən Mehdiyeva, Vəfa Vəzirova və Günay İmamverdiyeva muğam və xalq mahnılarından ibarət rəngarəng proqramla tamaşaçıların görüşünə gələcəklər. Xanəndələri tarzən Rövşən Qurbanovun rəhbərlik etdiyi ansambl müşayiət edəcək.

Həmin gün Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalına da start veriləcək. İlk gündə Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Rəqs Ansamblı Heydər Əliyev Sarayının səhnəsində çıxış edəcək, burada Arif Məlikovun “Məhəbbət əfsanəsi” baleti tamaşaçılara təqdim olunacaq.

konsertlər ölkənin müxtəlif salonlarında da davam etdiriləcək.

Uzun fasilədən sonra 2022-ci ilin noyabrından filarmoniyanın Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil etdiyi abonement konsertləri yenidən başlanır. Konsertlər hər şənbə günü saat 15-də kamera və orqan musiqisi zalında keçiriləcək. Bu konsertlərdə müxtəlif kollektivlər rəngarəng proqramlarla çıxış edəcək.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı özünün115-ci mövsümünün açılışına hazırlaşır. Teatrın direktoru, Xalq artisti Yusif Eyvazov yeni mövsümün açılışı ilə əlaqədar kollektivdə müzakirə keçirib. Qarşıda duran prioritet məsələlər, maraqlı layihələr, təqdimatlarla bağlı geniş yaradıcılıq diskussiyası aparılıb. Əsas məsələlərdən biri də teatrın qastrol səfərlərinin təşkilidir. Qeyd olunub ki, milli və klassik operaların bərpası teatrın qarşısında duran məsələlərdən biridir.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında isə Xalq artisti, bəstəkar Polad Bülbüloğlunun musiqiləri əsasında hazırlanan və yeni səhnə əsərlərindən olan “Nəğməmə inan” tamaşası nümayiş olunacaq. Teatrın bu bölməsində hazırlanan bu musiqili komediya növbəti dəfə sentyabrın 24-də teatrsevərlərə təqdim olunacaq. Librettosu və mahnılarının mətni Mixail Şerbaçenkoya məxsus olan bu səhnə əsərinə quruluşu teatrın baş rejissoru Cavid İmamverdiyev, dirijor, Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev veriblər. Quruluşçu rəssamı Vüsal Rəhim, quruluşçu baletmeysteri Əməkdar artist Nigar Şahmuradova, xormeysteri Əməkdar artist Vaqif Məstanovdur. Rolları əməkdar artistlər Boris Qrafkin, Fərid Əliyev, Nərgiz Kərimova, aktyorlar Emil Heydərov, Mehriban Zaliyeva, Rauf Babayev və Leonid Klyotc ifa edəcəklər.

Onu da deyək ki, Rusiyanın bir neçə teatrında oynanılan bu əsərin radio-tamaşasında baş rolu Polad Bülbüloğlu özü səsləndirib.

Şuşa Dövlət Musiqili Dram Teatrı 150-ci teatr mövsümünü sentyabrın 16-da gənc yazar Jalə Novruzun “Molla Nəsrəddini tapın” tamaşasının premyerası ilə açacaq. Tamaşanın quruluşu teatrın baş rejissoru, Əməkdar artist Loğman Kərimova məxsusdur. Quruluşçu rəssam Valeh Məmmədov, musiqi tərtibatçısı Ağasəlim Feyzullayevdir. Molla Nəsrəddin rolunu Əməkdar artist Teymur Məmmədov, Mollanın arvadını isə Xalq artisti Şükufə Musayeva ifa edəcəklər. Digər rolları isə teatrın aktyorları Rəsəf Mehdiyev, Hamlet Qənbərov, Dürdanə Dünyamalıyeva, Təranə Əliyeva, Nihad Heybətov, Mobil Qurbanov, Vüsal Məmmədov, Sevinc Ağayeva, Bahar Həmzəyeva, Gündüz Qasımov və Orxan Abışov canlandıracaqlar.

Bir sözlə, musiqi ocaqları yeni mövsümə tam hazırdır və sənətsevərləri bir-birindən maraqlı tamaşalar, konsertlər, digər mədəni-kütləvi tədbirlər gözləyir.

***Q.RAMİLƏ***

# “Gəcil qapısı” – Güneyə açılan sənət yolu

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında “C.Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım” İctimai Birliyinin layihəsi çərçivəsində Seyfəddin Dağlının latın qrafikası ilə çap olunan “Gəcil qapısı” romanının təqdimat mərasimi keçirilib.**



Seyfəddin Dağlı zəngin ədəbi-bədii irsi ilə ədəbiyyat tariximizdə silinməz iz qoyan təkrarsız simalardandır. 1936-cı ildə – 15 yaşında ikən “Kommunist” qəzeti redaksiyasında işə başlayan gənc Seyfəddin sonralar burada ədəbi işçi, şöbə müdiri və məsul katib vəzifələrində çalışıb, II Dünya müharibəsində iştirak edən gənc yazar 1944–1946-cı illərdə Təbrizdə nəşr olunan “Vətən yolunda” adlı hərbi qəzetdə işləyib. Bu baxımdan ədibin yaradıcılığında Cənubi Azərbaycan mövzusu xüsusi yer tutur. Yazıçı neçə-neçə hekayəsini, eləcə də “Gəcil qapısı” romanını güneyli soydaşlarımızın həyatına həsr edib.



Təqdimat mərasimində kitabxananın direktoru Aslan Cəfərov və Cəfər Cabbarlı Ev Muzeyinin rəhbəri Qəmər Bağırova Azərbaycanın tanınmış yazıçısı Seyfəddin Dağlının zəngin ədəbi-bədii irsi ilə ədəbiyyat tariximizdə silinməz iz qoyduğunu qeyd etdilər. “Gəcil qapısı” romanında Arazın o tayındakı qardaş və bacılarımızın ağır həyatından, onların bəlalı taleyindən, çətin güzəranından və mübarizəsindən bəhs olunduğu diqqətə çatdırıldı.

AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Asif Rüstəmli görkəmli yazıçı ilə şəxsi tanışlığından danışdı, onun Azərbaycan ədəbiyyatına, ədəbi dilinə bütün varlığı ilə bağlı qələm sahibi olduğunu söylədi. Alim Seyfəddin Dağlı irsinin tədqiqi və təbliği ilə bağlı görülən işlərdən danışaraq ədibin əsərlərinin latın qrafikası ilə çap edilmədiyini təəssüf hissi ilə bildirdi. Nəhayət, “Gəcil qapısı” kitabının latın qrafikası ilə buraxılmasının sevindirici bir hadisə olduğunu bildirən ədəbiyyatşünas yazıçının digər əsərlərinin də təkrar çapının vacibliyini göstərdi.

Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Rəhim Əliyev Seyfəddin Dağlının milli ədəbi satira məktəbinin ən yaxşı ənənələrini yaşadan yazıçı, yumoristik povest və hekayələr ustası olduğunu bildirdi. O, yazıçının əsərlərinin bir çox dillərə tərcümə olunduğunu, müxtəlif ölkələrdə çap edildiyini söyləyərək Cənubi Azərbaycan mövzusunda yaradıcılığının bir kitabda toplanmasından məmnunluğunu ifadə etdi.

Ədəbiyyat İnstitutunun ədəbiyyat nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi, dosent, filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlu “Gəcil qapısı” romanında milli koloritin, Cənub dialektinin, şifahi xalq ədəbiyyatı nümunələrinin qorunub, saxlanıldığını bildirdi. Dövlət Tərcümə Mərkəzinin əməkdaşı, redaktor-tərcüməçi Bəhlul Abbasov atası Seyfəddin Dağlının yaradıcılığına göstərilən diqqət və marağa görə minnətdarlıq etdi. Onun həmkarı İlqar Əlfioğlu Seyfəddin Dağlının əsərlərinin Cənubi Azərbaycan mövzusu ilə maraqlanan oxucular, gənclər üçün dəyərli mənbələr olduğunu bildirdi.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev xalqımızın Seyfəddin Dağlı kimi görkəmli nümayəndələrinin, şair və yazıçılarının hər zaman ölkənin inkişafında, gənc nəslin milli ideya və vətənpərvərlik ruhunda yetişməsində təsirli rol oynadığını söylədi. “Gəcil qapısı” kitabının yeni əlifba ilə nəşr edilməsini müsbət dəyərləndirdi.

Mərasimdə AMEA-nın Əlyazmalar İnstitutunun əməkdaşı Xanımbacı Məlikzadə, Cəfər Cabbarlının Xızı Ev Muzeyinin direktoru Həcər Rəsulova və başqaları Seyfəddin Dağlı irsinə münasibət bildirdilər. Tədbirdə kitabxana əməkdaşlarının hazırladıqları “Sözün hikmətinə dəyər verən sənətkar – Seyfəddin Dağlı” adlı videomaterial nümayiş olundu.

Sonda yazıçının qızı Qəmər Bağırova “Gəcil qapısı” kitabının bir dəstini Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasına hədiyyə etdi.

***Ə.DOSTƏLİ***
***XQ***

# Rusiya–Ukrayna müharibəsi: PUA-lar səmada "at oynadır"

**Təxminən on doqquz ay bundan əvvəl Rusiyanın Ukraynaya qarşı başladığı hərbi əməliyyatlar hələ də davam edir. Bütün cəbhə boyu döyüşlərin intensivliyi və miqyası artır ki, azalmır. Bu barədə BBC agentliyi məlumat yayıb.**

Hər iki ölkədən on minlərlə insan itkisi və saysız-hesabsız dağıntılar olsa da, heç bir tərəf öz iddia və hədəflərindən geri çəkilmək istəmir. Dünən də Ukraynanın şərq və cənub vilayətlərində ağır döyüşlər gedib.

Bəzən bu müharibəni "dronlar müharibəsi" də adlandırırlar. Bu da təsadüfi deyil. Belə ki, rəqiblər hazırda ən çox məhz bu döyüş silahından istifadə edirlər. Hətta bir əcnəbi jurnalist obrazlı şəkildə belə deyib: "Bu günlərdə Ukrayna səmasında dronlar "at oynadır".

Bu, həqiqətən belədir. Tərəflər yaxın və uzaq mənzilli PUA-lar vasitəsilə bir-birinə mümkün qədər çox zərər verməyə çalışırlar. Bu arada, Ukrayna Müdafiə Nazirliyinin rəsmisi bildirib ki, Rusiyanın gecə saatlarında bir neçə bölgəyə hücumları zamanı istifadə etdiyi 17 pilotsuz uçuş aparatı məhv edilib.

UNİAN agentliyi həmin mənbəyə istinadən bildirib ki, Rusiya aviasiyası Ukraynanın Nikolayev, Zaporojye, Sumı və Dnepropetrovsk vilayətlərini hədəf alan hücumlar zamanı, ümumilikdə, 22 pilotsuz uçuş aparatından istifadə edib.

Dnepropetrovsk vilayətinin qubernatoru Sergey Lısak isə qeyd edib ki, bölgə üzərində vurulan üç pilotsuz təyyarədən birinin qalıqları binalara və avtomobillərə ziyan vurub. Lısak Rusiyanın bölgəni havadan da aramsız atəşə tutduğunu, lakin itki olmadığını bildirib.

Rusiya Müdafiə Nazirliyi dünən səhər saatlarında ölkənin qərbindəki Bryansk vilayəti üzərində Ukraynanın bir neçə pilotsuz təyyarəsinin vurulduğunu bildirib. Onun sözlərinə görə, sentyabrın 15-də Qara dənizdə patrul gəmisinə edilən hücumun qarşısı alınıb və beş pilotsuz qayıq məhv edilib.

Bu günlərdə Krım sakinləri də narahat anlar yaşayırlar. Rusiya Müdafiə Nazirliyinin nümayəndəsi "Telegram" kanalında Krım üzərində Ukraynanın 11 pilotsuz təyyarəsinin zərərsizləşdirildiyini bildirib.



Bu, Ukrayna raketinin Krımdakı strateji gəmiqayırma zavodunu vurması nəticəsində 24 nəfərin yaralanması və təmirdə olan iki gəminin zədələnməsindən bir gün sonra baş verib.

Hazırda hər kəsi bir sual düşündürür: Görəsən, Rusiya-Ukrayna müharibəsində yaxın gələcəkdə atəşkəs elan oluna bilərmi? Hərbi təhlilçilər buna mənfi cavab verirlər. Görünən budur ki, rəqiblər hazırda bir-birinin silah və sursatlarının nə vaxtsa bitib-tükənəcəyinə ümid bəsləyirlər.

ABŞ-ın başçılıq etdiyi Kollektiv Qərb Ukraynanın silah təchizatı ilə bağlı vədlərinə, hələlik, əməl edir. Məsələn, dünən məlum olub ki, İsveç hökuməti Ukraynaya JAS 39 "Gripen" döyüş təyyarələri bağışlamağı düşünür.

İsveç ictimai radiosu adı açıqlanmayan mənbələrə istinadən ilk dəfə sentyabrın 12-də bu ehtimal barədə məlumat yayıb.

Məlumata görə, hökumət bu həftə ölkənin silahlı qüvvələrindən Ukraynaya qeyri-müəyyən sayda "Gripen"in köçürülməsinin mümkün olub-olmadığını soruşa bilər. Bu barədə xəbərdə Kiyevin İsveçin "Saab" şirkətinin istehsal etdiyi "Gripen" döyüş təyyarələrinin bir hissəsini almaq istədiyi və bunun 16-18 ədəd olduğu bildirilir.

Ukraynadan fərqli olaraq Rusiyanın hələ kifayət qədər silahı var. Bununla bərabər, Rusiyanın hətta Şimali Koreyadan yeni silahlar aldığı barədə təsdiqlənməmiş məlumatlar yayılır. Yeri gəlmişkən, Moskva bu şayiələri qəti şəkildə təkzib edir. Dünən Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Vladimir Putin və Kim Çen In arasında aparılan danışıqların yekununda iki ölkə arasında hərbi-texniki əməkdaşlıq da daxil olmaqla heç bir saziş imzalanmayıb.

Peskov vurğulayıb ki, Rusiya Federasiyası və KXDR liderləri arasında təmaslarda sensasiya axtarmağa ehtiyac yoxdur, bu qəbildən olan görüşlər artıq ənənəyə çevrilib. Qeyd edək ki, Putin və Kim Çen In sentyabrın 13-də Amur vilayətindəki Vostoçnıy kosmodromunda görüş keçiriblər.

Kreml KXDR və Çini özünə arxadayaq hesab etdiyi bir məqamda Kiyev də əsas himayədarı Vaşinqtona güvənir. Bu günlərdə məlumat yayılıb ki, Ukrayna Prezidenti gələn həftə Nyu-Yorkda keçiriləcək BMT Baş Assambleyasının iclasında iştirak edəcək.

ABŞ-ın NBC telekanalının müxbiri bildirib ki, V. Zelenski səfər çərçivəsində ABŞ Prezidenti Co Baydenlə görüşəcək. Görüşün Nyu-Yorkda və ya Ağ evdə keçiriləcəyi, hələlik, məlum deyil.

Qeyd edək ki, V.Zelenski sonuncu dəfə C.Baydenlə bu ilin iyulunda NATO-nun Vilnüs sammiti çərçivəsində Litvada görüşüb. Gələn il ABŞ-da növbəti prezident seçkiləri keçiriləcək. Rusiya-Ukrayna müharibəsi Kiyevin qələbəsi ilə bitərsə, Ağ evin hazırkı sahibinin özünün ali vəzifəsini qoruyub saxlamaq şansı artacaq.

Əks təqdirdə, Rusiya ilə münasibətlərin normallaşmasına çalışan prezidentliyə namizədlərin şansları arta bilər. Buna görə də ABŞ-ın hazırkı iqtidarının Ukraynaya hərtərəfli dəstəyini daha da artıracağı ehtimal olunur.

***Məsaim ABDULLAYEV***
***XQ***

**Yeniyetmə şahmatı**

**Azərbaycan şahmatçıları ilk dəfə yeniyetmələrin qitə çempionatında 4 qızıl medal qazanmaqla rekord nəticəyə imza atıblar. Rumıniyanın Mamaya şəhərində yeniyetmə oğlan və qızlar arasında keçirilən Avropa birinciliyinin 4 qızıl, 2 gümüş və 1 bürünc medalını qazanan komandamız ümumi hesabda fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.**

# Komandamız Avropa qalibi oldu

Yeniyetmə və gənclərdən ibarət yığmanın baş məşqçisi Fərid Abbasov "Xalq qəzeti"nə açıqlamasında şahmatçılarımızın güclü rəqiblərə qarşı çox inamla mübarizə apardıqlarını bildirdi. O qeyd etdi ki, bəzi şahmatçılarımız yarışın favoritləri idilər. Onlarla yanaşı, komandamızın digər üzvləri də çox yaxşı təsir bağışladılar. Ümumilikdə, Azərbaycan komandası Avropanın ən güclüsü olduğunu sübut etdi:



"Qitə yarışının qalibi adını qazanan Əhməd Xaqan yarışın favoriti idisə, digər şahmatçılarımız da çox gözəl çıxış etdilər. Rüstəm Rüstəmov son gedişlərə qədər inamlı təsir bağışladı və 9 turdan 8 xal yığdı. O, erməni rəqibi ilə qarşılaşmada ağır vəziyyətdə ikən qara fiqurlarla yaxşı müdafiə olunmağı bacardı və oyun bərabər başa çatdı. Son oyunda isə Polşa təmsilçisi, ondan ELO xalına görə xeyli irəlidə olan Patryk Cieslakı məğlub etdi. Yaşıdları arasında güclü şahmatçılardan hesab olunan rəqibi 12 yaşadək yeniyetmələr arasında Avropa çempionu olub. Xəzər Babazadənin gümüş medalı da çox yaxşı nəticədir. Həmçinin, ikinci yeri tutan Ayan Allahverdiyeva güclü oyunçudur. Ölkəmizə nüfuzlu yarışlardan ən çox medal gətirən idmançıdır. O üçqat Avropa çempionudur. Böyük nəticələri var. Digər zəka ustalarımızdan Nərmin Abdinova ilk 10-da yer aldı. O son oyunda məğlub olmasaydı, əlavə göstəricilərə görə, bəlkə də 1-ci yerə çıxacaqdı.

8 yaşadək şahmatçıların nəticələrindən danışan baş məşqçi bildirdi ki, həm oğlanlar, həm də qızlar arasında çempion olan şahmatçılarımızdan gələcəkdə də yüksək nəticələr gözlənilir: "Məhəmməd Kazımzadə 8 yaşadək uşaqlar arasında 9-cu turda turnir cədvəlinin lideri ukraynalı Artyom Kuçeri məğlub edərək əlavə göstəricilərə görə qalib oldu. Eyni zamanda, bu yaş qrupunda Mehriban Əhmədli Ukraynanın digər təmsilçisi Viktoriya Rıjenkovaya qalib gəlib fəxri kürsünün ən yüksək pilləsində qərarlaşdı. Aşağı yaş qruplarında da şahmatçılarımızın parlaq çıxışları sevindirici haldır. Qızlardan Səadət Bəşirlinin bürünc medalı da yaxşı nailiyyətdir. Bu, onun Avropa çempionatında ikinci medalıdır. Bundan əvvəl qitə yarışının gümüş mükafatını qazanıb.

**Fərid Abbasov 2019-cu ildə 8 yaşadək şahmatçılar arasında Avropa çempionu olmuş Dinara Hüseynovadan da gözləntilərin olduğunu bildirdi. Vurğuladı ki, idmanda bəxt amili də rol oynayır:**

"Bu dəfə onun bir balaca bəxti gətirmədi. Onu da deyim ki, medal qazanmayan şahmatçılar arasında böyük potensiala malik olan zəka ustaları da var. Onlar da gələcək yarışlarda özlərini göstərmək üçün öz üzərlərində daha çox çalışmalıdırlar. Bu nailiyyət, ümumilikdə, Gənclər və İdman Nazirliyi, Şahmat Federasiyası, məşqçi heyəti, həmçinin şahmatçılar və onların valideynlərinin komanda şəklində birgə göstərdikləri böyük səylər hesabına qazanılıb. Qarşıda yığmamızı müxtəlif yaş qruplarında dünya çempionatları gözləyir. Çalışacağıq ki, azarkeşləri sevindirək.

**18 yaşadək şahmatçılar arasında Avropa çempionatının gümüş medalçısı Xəzər Babazadə qəzetimizə açıqlamasında yarış təəssüratlarını bölüşdü:**

–Bu, mənim yeniyetmələr arasında iştirak etdiyim son Avropa birinciliyi idi. Belə bir mötəbər yarışda medal qazanmaq həqiqətən də çox sevindirici haldır. Bu şansı mənə verdiyi üçün federasiyanın prezidenti Mahir Məmmədova dərin təşəkkürümü bildirirəm.

Qitə birinciliyində 18 yaşadək qızlar arasında ikinci yeri tutan Ayan Allahverdiyeva isə potensialına görə qalib olmaq şansının böyük olduğunu bildirdi. Qeyd etdi ki, müəyyən səhvləri ucbatından birinciliyi əldən verib.

Məhəmməd Kazımzadə isə 8 yaşadək uşaqlar arasında birinci yeri tutduğuna görə sevindiyini dedi:

– Müəllimlərimin etimadını doğrultduğum üçün çox sevinirəm. Bundan sonrakı yarışlara daha yaxşı hazırlaşmalıyam".

Yeniyetmə oğlan və qızlar arasında keçirilən Avropa çempionatında ən yüksək nəticə göstərən Azərbaycan komandası bir daha güclü potensialını nümayiş etdirdi.

***Leyla QURBANOVA***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan məişət avadanlıqlarının satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il sentyabrın 20-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan fərdi mühafizə vasitələrinin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il sentyabrın 22-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

BAKI SLAVYAN UNİVERSİTETİ

*Kafedra müdiri vəzifəsini tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

1. Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə – 1 yer.
2. Riyaziyyat və informatika kafedrası üzrə - 1 yer.

**Qeyd-** müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində təqdim edilməlidir.

Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız elmi və elmi-metodiki işlərinin siyahısını təqdim edirlər):

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil haqqında diplomun surəti.
5. Elmi dərəcə haqqında diplomun surəti.
6. Elmi ad haqqında diplomun surəti.
7. Elmi və elmi metodiki işlərin siyahısı.

Telefon- 599-08-70,daxili nömrə 204

Ünvan- AZ 1014, Bakı, S.Rüstəm küçəsi 33.

Azərbaycan Turizm və Menecment Universiteti

*Kafedra müdiri vəzifəsini tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

Menecment kafedrası üzrə –1 yer

Elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində (şənbə, bazar və bayram günləri istisna olmaqla) sənədlər saat 10.00-dan 17.00-dək Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə təqdim edilməlidir.

Sənədlər hr@atmu.edu.az mail ünvanı vasitəsi ilə elektron qaydada da qəbul edilir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (4x6 sm ölçüdə fotoşəkillə).
3. Tərcümeyi-hal.
4. Şəxsiyyət vəsiqəsinin surəti.
5. Profilə uyğun ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin təsdiq olunmuş surətləri.
6. Elmi və elmi-metodiki işlərin siyahısı.
7. Dekan və kafedra müdirinin müvafiq struktur bölməsinin inkişafı ilə bağlı platforması.

Telefon- 564-42-33 (daxili - 115).

Ünvan- AZ1072, Bakı şəhəri, K.Rəhimov küçəsi 822/23-cü məhəllə, 103 nömrəli otaq.

**Qeyd-** namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

***Rektorluq***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

BAKI SLAVYAN UNİVERSİTETİ

*Dekan vəzifəsini tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

1.Humanitar və sosial elmlər fakültəsi üzrə – 1 yer.

**Qeyd-** müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində təqdim edilməlidir. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə bu qaydaların 4,5 və 6-cı bəndlərində qeyd olunan sənədləri təqdim etməlidirlər):

1.Rektorun adına ərizə.
2.Kadrlar uçotunun şəxsi vərəqəsi.
3.Tərcümeyi-hal.
4.Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5.Elmi və elmi metodiki işlərin siyahısı.
6.Fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Telefon- 599-08-70,daxili nömrə 208.

Ünvan- AZ 1014, Bakı, S.Rüstəm küçəsi 33.

Xalq qəzeti
XQ
№ 200 (30316) 16 sentyabr 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Millimiz Rumıniya yığmasına uduzub



Futzal üzrə Azərbaycan millisi 2024-cü ildə keçiriləcək dünya çempionatının elit-raund mərhələsində ilk oyununu keçirib.

Vitali Borisovun baş məşqçisi olduğu yığma səfərdə Rumıniya ilə qarşılaşıb. Oyun rəqibin 3:1 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, millimiz noyabrın 20-də Bakıda Niderland yığması ilə üz-üzə gələcək.

## "Neftçi" – ən bahalı komanda



Heyətindəki futbolçuların qiymətinə görə "Neftçi" Azərbaycan Premyer Liqasının ən dəyərli komandasıdır.

"Transfermarkt" portalına görə, paytaxt təmsilçisinin oyunçularının ümumi dəyəri 16 milyon 630 min avrodur. İkinci yeri heyətinin dəyəri 13 milyon 700 min avro olan "Qarabağ" tutur. Üçüncü pillədə isə dəyəri 13 milyon 380 min avro olan "Sabah" klubu qərarlaşıb.

Qeyd edək ki, Azərbaycan Premyer Liqasının ümumi dəyəri 80 milyon 600 min avro təşkil edir.

## İrəvanda futbol təxribatı



UEFA Ermənistan Futbol Federasiyası və yığmanın baş məşqçisi Aleksandr Petrakova intizam işi açıb.

Buna AVRO-2024-ün seçmə mərhələsi çərçivəsində İrəvanda keçirilən Ermənistan – Xorvatiya oyununda baş verən hadisələr səbəb olub. Ermənistan Futbol Federasiyası stadionda ictimai keçidlərin bağlanmasında, qarşılaşma ərzində siyasi və təxribat xarakterli mesajların verilməsində ittiham edilir. Bundan əlavə, azarkeşlər həmin qarşılaşma zamanı pirotexniki vasitələrdən istifadə ediblər və matç nəzərdə tutulduğu vaxtdan gec başlayıb. Buna görə Ermənistan millisinin baş məşqçisi Aleksandr Petrakov da cəzalana bilər.

Xatırladaq ki, Ermənistan–Xorvatiya matçının (0:1) 35-ci dəqiqəsində dron vasitəsilə qondarma Xankəndi rejiminin "bayrağı" stadionun oyun keçirilən ərazisində nümayiş etdirilib.

Leyla SABİRQIZI
XQ

Maraq dünyamız

## Zəlzələdən əvvəl səma parıltısı...

**Mərakeşdə dağıdıcı zəlzələdən az əvvəl səmada mənşəyi naməlum parıltı müşahidə edilib. Bu barədə CNN agentliyi məlumat yayıb. Agentliyin məlumatına görə, zəlzələdən bir neçə dəqiqə əvvəl müşahidə olunan parıltılar şimşək çaxmasına, qütb işığına, havada işıq saçan mərmiyə, kiçik işıqlara və ya böyük alova bənzəyir.**



ABŞ Geoloji Xidmətinin keçmiş əməkdaşı Con Derr telekanala deyib: "Müxtəlif rəngli bu parlaq, rəqs edən işıq alimləri çoxdan çaşdırıb, onlar bu parıltının mənşəyi barədə yekun nəticəyə gəlməyiblər. Buna baxmayaraq onlar realdırlar".

San Xose Dövlət Universitetinin professoru Fridman Freund isə qeyd edib ki, zəlzələdən əvvəl işıqların görünməsi çox güman ki, süxurlardakı qüsurlar və dağ süxurlarının qarışması ilə bağlıdır. Onun sözlərinə görə, zəlzələ zamanı olduğu kimi, mexaniki təsirdən süxurlar dərhal dağılırlar və bu zaman elektrik enerjisi ayrılır.

Alimlər işıq parıltısının mənşəyinin başqa versiyalarını da irəli sürürlər. Bu versiyaların arasında süxurların dağılması və radonun buraxılması nəticəsində yaranan statik elektrik də var. Beləliklə, mütəxəssislər işıq parıltısını zəlzələni yaradan enerji yığılması və süxurları təşkil edən bəzi mineralların elektrik xüsusiyyətləri ilə izah edirlər.

Qeyd edək ki, bu işıqlar Kahramanmaraşda baş vermiş zəlzələdə də görünüb.

P.ƏFƏNDİ
XQ

HADİSƏ

## Xaçmazda uçan körpü yeniləcək

**Dünən səhər saatlarında Xaçmaz rayonunda təbii fəlakət nəticəsində çökmüş körpünün yerində yeni avtomobil körpüsünün inşası qərara alınıb.**



Bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi məlumat yayıb.

Xatırladaq ki, son günlər intensiv yağıntılar nəticəsində yaranmış güclü sel suları respublika əhəmiyyətli Gəndob–Xaçmaz–Yalama–Rusiya ilə dövlət sərhədi avtomobil yolunun 27-ci kilometrində, Qudyalçay üzərində yerləşən və 1974-cü ildə inşa edilmiş avtomobil körpüsündə çökməyə səbəb olub. Yeni körpünün inşası ilə əlaqədar günorta saatlarında əraziyə xüsusi texnikalar cəlb ediləcək. İnşaat işlərinin qısa müddət ərzində həyata keçirilməsi nəzərdə tutulub.

Sürücülər müvəqqəti olaraq alternativ yol kimi Xaçmaz rayonu, Qımılqışlaq kəndi ərazisindən keçən yoldan istifadə edə bilərlər.

AYTƏN
XQ

Maqazin

## Seda Sayan yalqızlaşıb



**Türkiyənin məşhur müğənnisi və aparıcısı Seda Sayan dost-tanış dedəmən hamını silib. Yerli KİV-lər yazır ki, bu dəfə Sayan təəccübləndirici bir hərəkət edib.**

**60 yaşlı məşhur ifaçı oğlu Oğulcan Engin və həyat yoldaşı Çağlar Öktendən başqa, hər kəsi "Instagram" da izləməyi dayandırıb.**

FİDAN
XQ

## Virtual xəzinə




**Hər il 15 sentyabr ölkəmizdə yeni tədris ilinin başlanğıcı hesab olunur.**

Bu münasibətlə Milli Kitabxananın əməkdaşları tərəfindən "15 Sentyabr – Bilik Günü" adlı virtual sərgi hazırlanıb. Sərgidə Prezident İlham Əliyevin Bilik Günü ilə bağlı müraciəti, Azərbaycan təhsil sistemi, Azərbaycanda təhsil tarixi, təhsil siyasəti, təhsilin inkişaf strategiyası və digər mövzularda məqalələr, kitablar və fotolar nümayiş olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər http://anl.az/el/vsb/15_Sentyabr_Bilik_gunu/index.html linkindən istifadə edə bilərlər.

XQ

Danışan fotolar

## Meymun maral belində

**Yaponiyada dünyanın ən nadir fotolarından biri çəkilib. Kadrlarda meşədə kolların arasından keçən maral və onun belində uzanan meymun görüntülənib.**

**Əylənməyi sevən, günün çox hissəsini ağac budaqlarında oynayaraq keçirən makaka adlı meymunun bu hərəkəti hər kəs tərəfindən böyük maraqla qarşılanıb.**

**Fotonun müəllifinin sözlərinə görə, meymun uzun müddət maralın belində meşəni gəzib.**



FİDAN
XQ

Sağlamlıq

## Araq "yaraq" deyil

**Soyuqdəymə və qripi evdə özbaşına araq, sirkə və antibiotiklə müalicə etməyin fəsadları barədə rusiyalı həkimlər xəbərdarlıq ediblər.**



Terapevt Yuliya Valeyeva deyib ki, xalq arasında qripi müalicə zamanı geniş yayılmış türkəçarələr bitki çayları, araq içmək, buruna soğan, spirt, sirkə çəkmək, antibiotik qəbul etməkdir. Lakin bunların 90 faizi xəstəliyi müalicə etmir. O bildirib ki, çox vaxt xəstələr arağa istiot töküb içməklə bədəni, qanı isidib, mikrobları öldürdüyünü düşünür. Əksinə, bununla orqanizmə əlavə stres verib, selikli qişaları yandırır, daha çox iltihab yaradırlar. O ki qaldı arağa, bu spirtli içki virusa qarşı "yaraq" deyil.

Ağciyərlərdə öskürək, bəlğəm gələndə isə nəfəs yollarına müxtəlif müdaxilələr edib, antibiotik və bəlğəmgətiricilər içib, vəziyyəti daha da pisləşdirirlər.

Soyuqdəymə və qripdə antibiotik qəbulu rol oynamır, çünki bu dərmanlar virusu yox, bakteriyaları məhv edir. Xəstələnən kimi ailə həkiminə müraciət edib, yataq rejimində olmaq, bol maye içmək lazımdır.

Z.HÜSEYNLİ
XQ



## Yağış yağacaq...

**Sentyabrın 16-da Bakıda və Abşeron yarımadasına gecəyə doğru bəzi yerlərdə yağış yağacağı ehtimalı var.**

Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 17-21° isti, gündüz 22-26° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunu olacaq. Nisbi rütubət 55-65 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-19° isti, gündüz 23-28° isti, dağlarda gecə 3-7° isti, gündüz 7-12° isti olacaq.

QƏZƏNFƏR
XQ

## Ən uzun çimərlik



**"Praia do Cassino" çimərliyi planetin ən uzun dəniz çimərliyidir və Braziliyadan Uruqvayla sərhədə qədər uzanır.**

"Praia do Cassino"nun uzunluğu mənbədən asılı olaraq bir qədər dəyişə bilər. Buna baxmayaraq, 230 kilometr uzunluğunda hesab olunur. Bu zona su idmanı, təbiət və çimərlik tətillərini sevənlər arasında çox populyardır. Bununla belə, macəra axtaranlar üçün çimərlik həm də "ekstremal ultra-marafon"da iştirak etmək üçün nadir fürsət təqdim edir.

Qeyd etmək lazımdır ki, Yer kürəsinin ikinci ən böyük dəniz çimərliyi Avstraliyanın cənub-şərqində, uzunluğu 194 kilometr olan Coorong Milli Parkındakı çimərlikdir. Planetin ən qısa çimərliyi İspaniyadadır və uzunluğu cəmi 40 metrdir.

SƏADƏT
XQ

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4926
SİFARİŞ 2336
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00